YENİ MÜSAVAT
N 160 (7049) 27 iyul 2018



## II və III ixtisas qruplarına qəbul imtahanı keçirilib

**Dövlət İmtahan Mərkəzi (DİM) dünən 2018/2019-cu tədris ili üçün ali təhsil müəssisələrinə qəbul olmaq istəyən abituriyentlər üçün II və III ixtisas qrupları üzrə qəbul imtahanı keçirib. DİM-dən verilən xəbərə görə, imtahan ölkənin 11 şəhərində - Bakı, Naxçıvan, Gəncə, Sumqayıt, Mingəçevir, Şəki, Bərdə, Göyçay, Şirvan, Lənkəran və Xaçmaz şəhərlərində ümumilikdə 61 binada aparılıb.**

İmtahanda 31904 abituriyentin iştirakı nəzərdə tutulurdu. Onlardan 14993 abituriyent II qrup üzrə, 16911 abituriyent III qrup üzrə imtahan verib. Abituriyentlərdən 29370 nəfəri Azərbaycan bölməsinin (II qrup üzrə 13641, III qrup üzrə 15729 nəfər), 2534 nəfəri isə rus bölməsinin (II qrup üzrə 1352, III qrup üzrə 1182 nəfər) məzunudur. Onların 13849 nəfəri oğlan (II qrup üzrə 9419 nəfər, III qrup üzrə 4430 nəfər), 18055 nəfəri isə qızdır (II qrup üzrə 5574 nəfər, III qrup üzrə 12481 nəfər). 24666 nəfər cari ilin orta ümumtəhsil məktəblərinin, 5865 nəfər əvvəlki illərin məzunlarıdır. 98 nəfər ali təhsil müəssisələrinin, 1275 nəfər isə orta ixtisas təhsili müəssisələrinin məzunudur. 163 abituriyent xarici ölkələrin vətəndaşdır. Ən yaşlı abituriyent 1959-cu ildən, ən gənci isə 2003-cü ildəndir.

Bakı şəhərində 14262, Naxçıvanda 1615, Gəncədə 3211, Sumqayıtda 1587, Mingəçevirdə 1309, Şəkidə 1788, Bərdədə 1827, Göyçayda 1310, Şirvanda 1853, Lənkəranda 1947, Xaçmazda isə 1195 abituriyentin imtahan verib.

Bu imtahanda iştirak etmək üçün ərizə vermiş abituriyentlər iyulun 18-dən etibarən DİM-in internet saytına daxil olaraq "İmtahana buraxılış vərəqəsi"ni çap edirlər. İmtahan bütün binalarda eyni vaxtda - saat 11:00-da başlanıb və 3 saat davam edəcək.



## Trampla Putin gizli razılaşıb?

**"ABŞ prezidenti Donald Trampla Rusiya prezidenti Vladimir Putin arasında əldə edilən razılaşmalar iki ölkənin liderləri üçün çox önəmlidir". Axar.az xəbər verir ki, bunu "Qordon" saytına müsahibəsində rusiyalı hərbi ekspert Pavel Felgenhauer deyib.**

"Trampla Putin arasında Helsinkidə əldə edilən razılaşmalar şifahi xarakterlidir. Bəli, onlar arasında nəsə razılaşma var və iki ölkədən hansısa komandalar bu istiqamətdə çalışacaqlar. Hələlik bu razılaşmanın mahiyyətini heç kim açmaq istəmir. Onların payızda nə müzakirə edəcəyi Suriya, İran və Ukraynadakı hadisələrin necə inkişaf edəcəyindən asılıdır. Hazırda Ukrayna məsələsi Tramp üçün maraqlı deyil. Moskva bütün diqqətləri Kiyevin Minsk razılaşmasının şərtlərini icra etməməsinə yönəldir. Bunun nə demək olduğu hələlik müəmmadır. Tez-tez Donbasda referendum və digər bəyanatlar səsləndirilir. Suriya və İran məsələsində də razılıq əldə olunub, amma o, heç bir nəticəyə gətirib çıxartmayıb. Trampı hazırda maraqlandıran da məhz bu iki ölkədir", - deyə o bildirib.

**Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!**

Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz kifayətdir.

**Telefon: (012) 434 93 01**

# Paşinyan: "İlham Əliyevə zəng vurardım, amma məndə nömrəsi yoxdur..."

**Ermənistanın baş naziri Nikol Paşinyan İrəvanda "Exo Moskva" radiosunun baş redaktoru Aleksey Venediktovla görüşüb və ona geniş müsahibə verib. Virtualaz.org xəbər verir ki, erməni KİV-ləri bu müsahibənin fraqmentlərini yayır.**

Müsahibədə Nikol Paşinyan Azərbaycan prezidenti İlham Əliyevlə tanışlığına da toxunub. Bildirib ki, Moskvada Rusiya prezidenti Vladimir Putin onları tanış edib, amma təəssüf ki, bu tanışlıq "effektli olmayıb".



Venediktov qeyd edib ki, Putin əvvəllər bir neçə dəfə Azərbaycan prezidenti və Ermənistan rəhbərliyi arasında görüş təşkil edib. "Gələcəkdə də hansısa belə format mümkündürmü?" - o soruşub. "Mən futbol üzrə Dünya Çempionatının açılışı üçün Moskvada olanda Vladimir Vladimiroviç Azərbaycan prezidenti ilə bizi tanış etdi. Biz onunla tanış olduq. Sadəcə olaraq, problem ondadır ki, təəssüflər olsun, bu tanışlıq o qədər də effektli olmadı" - Paşinyan cavab verib.

Paşinyanın sözlərinə görə, İlham Əliyev də bu günlərdə NATO sammitində iştirak edib, amma onlar bu sammitdə heç bir-birləri ilə salamlaşmayıblar da. "... Sadəcə olaraq, belə alındı da" - erməni baş nazir deyib.

Venediktovun erməni liderin İlham Əliyevə zəng vura biləcəyi barədə qeydinə Paşinyan belə reaksiya verib: "Bilirsinizmi, bəli, bu yaxşı ideyadır, amma məndə onun telefon nömrəsi yoxdur".

Bundan sonra Venediktov vəd edib ki, Əliyevlə görüşəndə ona belə sual verəcək: "Azərbaycan kompromisə hazırdırmı" və Paşinyan üçün ondan telefon nömrəsi xahiş edəcək.



## Xəzərdə əməliyyat: 3 iranlı tutuldu

**Mühərrikli qayıqla Azərbaycan sərhədini pozan İran vətəndaşı saxlanılıb. DSX-nin mətbuat mərkəzindən verilən məlumata görə, iyulun 24-də saat 23:30 radələrində Xəzər dənizinin Azərnbaycana mənsub olan bölməsinin cənub istiqamətində dövlət sərhədinin mühafizəsində olan sərhəd gözətçi gəmisi tərəfindən İran İslam Respublikası tərəfdən Azərbaycan Respublikasının dövlət sərhədini pozaraq şimal isitiqamətində sürətlə hərəkət edən hədəf aşkar olunub.**

Sərhəd gözətçi gəmisi tərəfindən hədəfin saxlanılması üçün təxirəsalınmaz tədbirlər həyata keçirilib, hədəfin "Yamaha-200" mühərrikli "Layner" tipli qayıq olması müəyyən edilərək 3 saat ərzində təqib edilib və saat 02:45 radələrində Lənkəran rayonunun Nərimanabad qəsəbəsi istiqamətində saxlanılıb. Saxlanılmış qayığa və qayıqda olan İran vətəndaşları - 1989-cu il təvəllüdlü Ramazani Omid Nirəc və Rəhimpur Rza Behnrac oğlunun üzərinə baxış zamanı 1 kiloqram tiryəkə oxşar maddə, 1 ədəd 12 kalibrlik "Maqnum" markalı beşaçılan tüfəng, 3 ədəd patron və 1 ədəd bıçaq aşkar olunub.

Fakt üzrə Dövlət Sərhəd Xidmətinin İstintaq və Təhqiqat İdarəsində Azərbaycan Cinayət Məcəlləsinin müvafiq maddəsi ilə cinayət işi başlanılıb.



## Oqtay Şirəliyev baş həkimlərə tapşırıq verdi

**Səhiyyə naziri Oqtay Şirəliyev tibb müəssisələrinin 2018-2019-cu illərin payız-qış mövsümünə hazırlıq tədbirləri barədə əmr imzalayıb. Musavat.com-un «Report»a istinadən verdiyi xəbərə görə, bununla bağlı Bakı Şəhər Baş Səhiyyə İdarəsinin rəisinə, şəhər və rayon səhiyyə idarə və şöbələrinin müdirlərinə, nazirliyin tabeliyində olan müəssisələrin rəhbərlərinə və rayon mərkəzi xəstəxanalarının baş həkimlərinə tapşırıq verilib.**

Əmrə əsasən, sentyabrın 15-dək payız-qış mövsümü ilə əlaqədar təsərrüfat sahəsində görüləcək işlər müəyyənləşdirilməli, aşkar edilən nöqsanların aradan qaldırılması üçün tədbirlər planı hazırlanaraq cavabdeh şəxslər təyin edilməlidir. Əmrdə tapşırılır ki, şöbələrdə, kabinetlərdə, təyinatından asılı olmayaraq bütün iş sahələrində yanğın təhlükəsizliyi qaydalarının tələblərinə əməl edilməli, qeyri-standart və istifadəyə yararsız olan odun və qaz sobalarından, elektrik qızdırıcılarından istifadə qadağan edilməli, tüstü borusunun və bacasının qurumdan təmizlənməsi təmin edilməli, qazanxanada nəzarət-ölçü cihazları yoxlanılmalıdır. Əmrin icrasına nəzarət səhiyyə obyektləri şöbəsinin inkişafının planlaşdırma şöbəsinin müdiri Əli Abbasova həvalə edilib.

## Bu gün Bakıda 33-35 dərəcə isti olacaq

**Bakıda və Abşeron yarımadasında iyulun 27-də hava şəraitinin dəyişkən buludlu, yağmursuz keçəcəyi gözlənilir. Şimal-şərq və şərq küləyi əsəcək. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentindən musavat.com-a verilən məlumata görə, havanın temperaturunun Abşeron yarımadasında gecə 25-28, gündüz 31-36, Bakıda gecə 26-28, gündüz 33-35 dərəcə isti olacağı gözlənilir. Atmosfer təzyiqi normadan aşağı 757 mm civə sütunu, nisbi rütubət gecə 65-75, gündüz 40-45 faiz təşkil edəcək.**

İyulun 27-də Abşeronun şimal çimərliklərində (Sumqayıt, Novxanı, Pirşağı, Nardaran, Bilgəh, Zuğulba) dəniz suyunun temperaturu 26-27, cənub çimərliklərində isə (Türkan, Hövsan, Sahil, Şıx) 27-28 dərəcə isti təşkil edəcək. Mülayim şimal-şərq küləyi və zəif dalğalanma çimərliklərdə əlverişli şərait yaradacaq.

Azərbaycanın rayonlarında iyulun 27-də hava şəraitinin yağmursuz keçəcəyi gözlənilir. Şərq küləyi arabir güclənəcək. Havanın temperaturunun gecə 22-27, gündüz 35-40, dağlarda gecə 15-20, gündüz 26-31 dərəcə isti olacağı gözlənilir.

İyulun 27-də Abşeron yarımadasında günün bəzi saatlarında durğun və rütubətli hava şəraiti gözlənilir ki, bu da əksər meteohəssas insanlar üçün əsasən əlverişsizdir.

## Bakıda piyadanı vurub qaçan sürücü tutuldu

**Bakıda piyadanı vuraraq hadisə yerindən qaçan sürücü tutulub. Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən APA-ya verilən məlumata görə, iyulun 22-nə keçən gecə 45-50 yaşlı kişinin ağır bədən xəsarətləri ilə xəstəxanaya gətirilməsi və orada ölməsi barədə Nizami RPİ-nin 23-cü Polis Bölməsinə məlumat daxil olub.**

Polis əməkdaşlarının keçirdikləri təxirəsalınmaz tədbirlərlə həmin şəxsin Bakı şəhər sakini Tofiq Abbasov olduğu, Babək prospektində yolu keçərkən avtomobillə vurulduğu müəyyən edilib.

Həyata keçirilən əməliyyat-axtarış tədbirləri nəticəsində hadisənin "Hyundai" markalı avtomobillə törədildiyi müəyyən edilib. Yol qəzasını törədərək hadisə yerindən yayınmaqda şübhəli bilinən həmin nəqliyyat vasitəsini idarə edən Bakı şəhər sakini Eldar Məhərrəmov polis əməkdaşları tərəfindən saxlanılaraq istintaqa təhvil verilib.

YENİ MÜSAVAT
N 160 (7049) 27 iyul 2018

**Artıq üçüncü ildir ki, Bakıda "Jara" Beynəlxalq Musiqi Festivalı keçirilir. Bakının "Sea Breeze" istirahət zonasında təşkil olunan festivalda tanınmış müğənnilər konsert verir. Bu dəfə onlar arasında erməni əsilli müğənni Zara Mqoyan da var. Z.Mqoyanın Bakıya gəlişi elan edildiyi gündən sosial şəbəkələrdə etirazlar başlayıb.**

# Ermənilər Bakıya gəlsin, gəlməsin?

## Müğənni Zara ilə bağlı qalmaqal klassik sualı təzədən gündəmə gətirib; siyasilər "qızıl orta" haqda...


Zahid Oruc


Tural Abbaslı

Bir neçə gündür Azərbaycan ictimaiyyəti erməni-kürd əsilli olduğu bildirilən rusiyalı müğənni Zara Mqoyanın 26-29 iyul tarixində Bakıda keçiriləcək "Jara-2018" Beynəlxalq Musiqi Festivalına qatılıb-qatılmayacağını müzakirə edilirdi. Sosial şəbəkələrdə də buna sərt şəkildə etiraz edənlər də vardı. Nəhayət, iyulun 25-də Zaranın adının siyahıdan çıxarıldığı, onun Bakıya gəlməyəcəyi açıqlansa da, sonradan məlum oldu ki, Zara Bakıya gəlir. Hətta Bakıdadır.

Qarabağ Azadlıq Təşkilatının bir qrup qadın üzvləri 26-29 iyulda Bakıda keçiriləcək "Jara-2018" festivalında erməni müğənnisi Zara Mqoyanın gəlişinə etirazlarını bildirmək üçün dünən Mədəniyyət Nazirliyinə gedib. Onlar nazir və yaxud səlahiyyətli nümayəndələrin biri ilə görüşmək istəyiblər. Lakin Səbayel rayonu polis əməkdaşlarının müdaxiləsi nəticəsində etirazçılara nazirliyə daxil olmağa imkan verməyiblər.

Qarabağ Azadlıq Təşkilatının Qadınlar Şurası bir daha bəyan edir ki, nə qədər ki, torpaqlarımız işğal altındadır, Xocalı soyqırımı öz ədalətli həllini tapmayanadək, kiçik Zəhraların qatilləri beynəlxalq tribunala verilməyənədək, hər hansı bir erməni əsillilərin Azərbaycana gəlişinə yol verilməməlidir.

Maraqlıdır, bu cür etirazlar, sosial şəbəkədəki söz-söhbətlər Qarabağ məsələlərində təbliğatımıza ziyan vurmur ki?

**Deputat Zahid Oruca görə, situasiya bir parametr üzərində müəyyənləşdirilə bilməz:** "Hər kəsin özünəməxsus həqiqətləri var. Bunu milli miqyasda ölçmək, onu vahid bir tabloya gətirmək o qədər də asan deyil. Əslində mən bunu bir matrisa tənlik sayardım. Müharibə aparmış ölkələrin əksəriyyətində dövlətlərarası münasibətlər belə bir fazadan keçib. Bir tərəfdən, işğal reallığı var, on minlərlə insan itirilib. Yaralar hələ istidir. Gerçək ağrıları daşıyan insanların sayı milyonlarladır. Belə olan təqdirdə hamını siyasətçi kimi düşünməyə vadar etmək çox çətindir. Siz çağırış edə bilərsiniz ki, bəli, biz dünyaya o mövqeni çıxartmaq istəyirik ki, ermənilər bizim vətəndaşlarımızdır və konstitusiyanı, qanunları tanıyanlar, ərazi bütövlüyümüzə hörmət göstərənlər təkrarən bizimlə eyni məkanda yaşaya biləcəklər. Hər erməni təhlükəlidir duyğusu ilə yaşamayın, Bakıya mahnı oxumağa, yaxud rinqə yarışmağa gələnləri qəbul edin. Bunlar əlində silah olan ermənilərdən fərqlidir və siz xalq diplomatiyasını bu vasitə ilə inkişaf etdirmiş olarsınız. Ermənilərin içərisində bu ideoloji yönü tutanlar var ki, azərbaycanlılar sizə düşməndir, orada yaşamaq sizə təhlükəli olacaq, bunların əlindən bu silahı alın, o təbliğat silahını onların əleyhinə çevirin. Bax, bu yöndə bir mövqe tutmağa çalışsaq, gətirdiyiniz arqumentlər sona qədər hər kəsi inandırmaq gücündə olmayacaq. Niyə? Çünki onlar əksini sübut eləmək üçün yüz illər ərzində keçən nümunələri təqdim edəcəklər. Axı qeyd etdiyiniz siyasət hələ bəhrə verməyib. Ayrı-ayrı hallarda istər əhali qrupları, ictimai birliklər, təşkilatlar, beyin mərkəzləri, siyasi institutlar, həmçinin dövlətin özünün də içərisində müəyyən qədər xətt həyata keçirilib ki, onlar müəyyən qədər barışa xidmət etsin, bir yandan düşmən erməniləri tərk-silah eləsin, daha sonrakı dövrdə yenə də sülhpərvər görünənlər də keçirlər təzədən səngərə. Bu məsələ çox çətindir. Mənəvi-psixoloji cəhətdən ağrılı işdir".

**AĞ Partiya sədri Tural Abbaslı isə hesab edir ki, bu məsələlərdə dövlət özünün konkret siyasətini müəyyənləşdirməlidir:** "Ya radikal mövqedə duraraq, insanların patriotik hissinə gediş edərək xalq bu məsələnin həllinə çalışmalıdır, ya da xalq diplomatiyanı davam etdirməlidir. Guya dünya birliyi qarşısında obraz yaradıb, o obraz cəhətdən Qarabağ məsələsini həll etməyə çalışırlar. Azərbaycanda bu məsələlər qarışıb bir-birinə. Məsələn, lazım olanda eyni hakimiyyət erməni əsilli siyasətçi olsun, ya mədəniyyət işçisi, lazım olanda bütün televiziyalar təbliğat aparır ki, bu erməni əsillidir və onun Bakıya gəlməyi vətənə xəyanətdir. Xocalı kimi bir çox faciələrimizi xatırladırlar. Amma sərf edəndə xalq diplomatiyasından, mədəniyyətin, idmanın siyasətdən üstdə durduğundan danışırlar. Ona görə də cəmiyyətdə belə qarşılıqlı yaranır. Hökumət öz xəttini bəlirləməlidir. Bu məsələdə müxalifətin mövqeyi birmənalıdır. Bizim qanımızı tökən xalqa, millətə qarşı heç bir tolerantlıqdan söhbət gedə bilməz. Müharibə şəraitində yaşadığın millətlə xalq diplomatiyası qura bilməzsən, qurmamalısan. İllər bunu sübut etdi ki, ermənilər bu diplomatiyadan anlamırlar. Zara olmasın, hansısa idmançı olsun, Azərbaycana gəlişinin əleyhinəyəm".

**❑ Ləman MUSTAFAQIZI, "Yeni Müsavat"**

# Yaxşılıq etmək üçün yaşayan insan

## *(Arzu Nağıyevin 55 yaşına)*



**Mən özümə, həm də bütövlükdə məmləkətimə çox əziz və dəyərli olan bir insandan bəhs etmək istəyirəm...**

Onun adını ilk dəfə dünyanın düz vaxtlarında - təxminən 35-40 il əvvəl eşitmişəm. Düz evimizin içindəcə. İndi haqq dünyasında olan cənnətməkan analarımız rayondakı uşaq xəstəxanasında bir yerdə çalışırdılar. Bütün analar kimi onlar da həmişə, işdən macal tapan kimi, çox böyük şövqlə balalarından danışardılar - onların ağlasığmaz dəcəlliklərindən, məktəb macəralarından, bir sözlə, uşaq dünyasının özəlliklərindən. Səmayə həkimin böyük oğlu barədə söylədiklərinin üstünə anam beşini qoyub ən çox da mənə - öz sonbeşiyinə həvəslə və bir az da nəsihətamiz bir formada nəql edərdi. O söhbətlərin içindən artıq öz aləmimdə - məndən 6 yaş böyük olan o qeyri-adi oğlanın obrazını yarada bilmişdim. Mənə elə gəlirdi ki, onu çox yaxından tanıyıram; o harada olursa, diqqət mərkəzinə gəlir, ən çətin misal və məsələləri *(xüsusən də heç cür könlümə yatmayan, elə buna görə də nisbətən axsadığım hesab fənlərindən)* gözüyumma həll edir, həm məktəbdə, həm də küçədə futbol oynayan vaxtı mütləq öz komandasının kapitanı olur, bütün uşaqlardan, hətta özündən böyüklərdən belə fərqli və çevik düşünür, oxumadığı kitab qalmayıb, nənəm demiş, "bilmədiyi şeyə qurd düşər".

Mən onu belə tanımağa başladım.

... O vaxt mən 5-ci sinifdə oxuyurdum. Onun orta məktəbi qızıl medalla bitirməsinin sorağı bütün rayona yayılmışdı. O dövrün şagirdləri ona həsədlə baxırdı. Rayonumuzun 3 Sovet İttifaqı Qəhrəmanından biri olmuş Yusif Sadıqovun adını daşıyan Bozalqanlı məktəbi kimi məşhur bir təhsil ocağını belə yüksək qabiliyyətlə başa vurmaq hər oğulun hünəri deyildi. Bu böyük uğurundan sonra o, çoxları üçün əlçatmaz olan ali məktəblərdə təhsil aldı - əvvəlcə Moskvada, ardınca Tiflisdə. Bir gün də eşitdik ki, rayonda yaxşı tanınan Nəsib doxturun oğlu Dövlət Təhlükəsizlik Komitəsində işə girib.

Bizim taleyimizə qohumluq qisməti də yazılıbmış. Bu isə çox sonralar baş verəcəkdi. O vaxt ki, mən artıq əsgərliyimi başa vurub qayıdandan sonra universitetdə təhsil ala-ala işləyirdim həm də. Və 1992-ci ilin gözəl günlərinin birində onunla ilk dəfə üz-üzə gəlib, axır ki, əyani surətdə də tanış olduq. Köhnə dostumuz, indi tanınmış tarixçi olan Dilavər Əzimlinin toyunda tam təsadüf nəticəsində yanaşı əyləşəsi olduq və məlum oldu ki, qarşımdakı elə həmin adamın özüdür - uşaqlıqda haqqında tez-tez eşitdiyim o qeyri-adi oğlan.

O da sanki bu tanışlığı gözləyirmiş kimi məni toydan yarımçıq çıxarıb, evlərinə apardı. Beləcə, bizim dostluğumuz, bir müddətdən sonra isə daha bir qohumluğumuz yarandı.

Bu illər ərzində o, çox məsul və həddsiz məsuliyyətli, eyni zamanda riskli görəvlərdə çalışdı. Qarabağ savaşının ən qanlı günlərində əlində silah döyüşlərə atıldı. Son güllləsinə qədər mövqeyindən çəkilmədi. Torpağını, millətini, dövlətini, bayrağını hər şeydən uca tutdu. El-obasının, dost-tanışının xoş günündən ötəri səlahiyyət sahibləri ilə qovğaya girib, heç nədən çəkinmədi.

İndi o, ölkəmizdə böyük nüfuzu olan analitik, siyasi şərhçidi. Ölkə mediasının ən çox şərhlərinə yer verdiyi fikir adamıdı. O, həmişə ölkədə və dünyada baş verən hadisələrə obyektiv baxışı ilə seçilir. Geopolitika ilə bağlı ciddi araşdırmaların müəllifi kimi beynəlxalq miqyasda da qəbul olunan azsaylı nüfuz sahiblərindən hesab olunur.

Məncə, onun şəxsiyyətindən söz düşəndə mütləq başqa bir maraqlı məqam vurğulanmalıdır. Lap cavanlığından bədii ədəbiyyata olan sevgisi, içində qələmə sarılıb, yazmaq həvəsi oyadıb. Könül oxşayan gözəl şeirlərlə yanaşı təsirli hekayələrin də müəllifidi. Şeir və hekayələrdən ibarət 3 kitabı çap olunub. 20 ilə yaxındır ki, Azərbaycan Yazıçılar Birliyinin üzvüdür. Bu barədə heç yanda danışmağı xoşlamasa da, indinin özündə belə arada bədii yaradıcılıqla məşğul olmağa vaxt tapır.

Artıq uzun illərdir ki, mən onu durmadan müşahidə edirəm. O, harada çalışmağından asılı olmayaraq bu məmləkətdə nadir adamlardan biri oldu ki, həmişə öz şəxsiyyətini qorumağı bacardı. Hər addımını ölçülü-biçili atdı. Hər sözünün ağası oldu. Həmişə, hər yerdə, həm də hamıya qarşı səmimi davrandı. Heç kimə fərq qoymadan əlindən gələn köməyi bir kimsədən əsirgəmədi. Halal yaşamağı öz həyat amalına çevirib, insanlara yaxşılıq etməyin ləzzətini könül dolusu içinə çəkdi.

... İyul aynın 27-si Onun günüdür.

**55 YAŞIN MÜBARƏK OLSUN, ARZU NAĞIYEV!!!**

**❑ Ehtiram İlham**

***P.S.** Rauf Arifoğlu və "Yeni Müsavat" Media Qrupunun kollektivi Arzu Nağıyevi 55 illik yubileyi münasibətilə təbrik edir, ona sağlam həyat, bol ruzi-bərəkət arzu edir.*

YENİ MÜSAVAT
N 160 (7049) 27 iyul 2018



# Əflatun Amaşov: “Zara Azərbaycana əlində silah gəlmir”

**“Rusiyanın erməni əsilli olduğu bildirilən tanınmış müğənnisi Zaranın ”Jara" festivalında iştirak üçün Bakıya gələcəyinə dair xəbərlərin sosial şəbəkələrdə müzakirəsi ilə tanış oldum. “Xəzər TV”də yayımlanmış məlum sujeti də izlədim və azacıq araşdırma apardım. Zara Rusiya telekanallarından birində təxminən 2-3 il əvvəl yayımlanmış müsahibəsində kürd kökənli olduğunu bildirir. Yəni Mqoyan soyadına baxmayaraq, xanım kürddür və hamının da bildiyi kimi, Zara Ermənistandan Rusiyaya köç edərək orada məskunlaşmış ailədə anadan olub. Bütün həyatı da Rusiya ilə bağlıdır".**

APA-nın məlumatına görə, bunu millət vəkili, Azərbaycan Mətbuat Şurasının sədri Əflatun Amaşov “Jara” festivalında iştirak edəcək müğənni Zara Mqoyanın Bakıya gəlməsi ilə bağlı etirazlara münasibət bildirərkən deyib.

Ə. Amaşov qeyd edib ki, müğənniyə qarşı olan hiddəti anlayır: “Erməni soyadını kənara qoyub, yalnız Ermənistanı vəsf edən mahnının buna əsas verə biləcəyi qənaətindəyəm. Hər bir halda təmkinli davranmağın tərəfdarıyam. Nəzərə alaq ki, əksəriyyətin erməni kimi təqdim etdiyi Zara Azərbaycana əlində silah gəlmir. Bakıda ata-babalarının məskəni olan Ermənistanı vəsf edəcək cəsarətdə də ola bilməz. Bakı heç bunun yeri də deyil”.

**Ə. Amaşov xatırladıb ki, Azərbaycan müxtəlif beynəlxalq təşkilatlara üzvdür:** “Bu təşkilatlarda Ermənistan da təmsil olunur və dəfələrlə olub ki, həmin təşkilatların xətti ilə Azərbaycanın ev sahibliyi etdiyi tədbirlərə erməni nümayəndələr qatılıblar. Hətta erməni jurnalistlərin də Bakıya gəldikləri vaxtlar olub. Nə etməli idik? İmkan verməməliydik?”

**Millət vəkili Avropa Oyunları zamanı da ölkəmizə erməni idmançıların gəldiyini qeyd edib:** “İdmanın idman, musiqinin musiqi, müharibənin də müharibə yeri var. Biz torpaqlarımızın 20 faizinin Ermənistan tərəfindən işğalı faktına etiraz ediriksə, bunu səngərdə göstərməliyik - 2016-cı ilin aprel döyüşlərində göstərdiyimiz kimi. Ancaq erməni olduğu deyilən, əslində isə kürd əsilli bir müğənninin Bakıya gəlməsini sanki süngü ilə qarşılamaq, zənnimcə, doğru yanaşma deyil. Ən xoşagəlməz məqam isə özümüzün olan ”Xəzər TV"yə yayımladığı sujetə görə hiddət yağdırmaqla əslində öz içimizdə parçalanma yaratmağımızdır. Bizə kənardan baxırlar. Yenə də bu fikirdəyəm ki, təmkinli olmalı, hər bir etirazı normal qaydada, əsaslandırılmış şəkildə bildirməliyik".



# Moskvada azərbaycanlını öldürən azərbaycanlıya 10 il 6 ay həbs verildi

**2015-ci ilin dekabrında həmyerlisini öldürməkdə ittiham olunan Azərbaycan vətəndaşı 10 il 6 ay müddətinə azadlıqdan məhrum edilib (oxu.az). O, həbs cəzasını Azərbaycanda çəkəcək. Bununla bağlı Rusiya Federasiyası Moskva vilayəti prokurorluğunun mətbuat xidməti məlumat yayıb.**

“2015-ci il dekabrın 30-da Azərbaycan Respublikasının vətəndaşı Moskva vilayətinin Mıtişinsk rayonu ərazisində şəxsi münaqişə zəminində həmyerlisini bıçaqlayaraq öldürüb” - məlumatda bildirilib. Hadisəni törətdikdən sonra o, Rusiya Federasiyasının ərazisini tərk edib və həmin şəxslə bağlı beynəlxalq axtarış elan edilib.

O, 2016-cı ildə Azərbaycan Respublikasının hüquq-mühafizə orqanları tərəfindən saxlanılıb. Azərbaycan vətəndaşı olduğu səbəbindən məhkəmə istintaqının aparılması üçün onun “Mülki, ailə və cinayət işləri üzrə hüquqi yardım və hüquqi münasibətlər haqqında” Konvensiya səbəbindən Rusiyaya ekstradisiya edilməsi mümkün olmayıb. Cinayət işinin istintaqı Azərbaycan Respublikasının müvafiq orqanlarına göndərilib.

# Bodrumda azərbaycanlıların da olduğu hoteldə kütləvi zəhərlənmə

## “VOGUE Hotel Bodrum” istirahət mərkəzində yüzlərlə turist naməlum virusa yoluxub; hotel rəhbərliyi mikrobun sudan keçdiyini desə də, müştərilər qidalardan şübhələnir

**Türkiyənin kurort şəhərlərindən olan Bodrumdakı hotellərdən birində kütləvi zəhərlənmə baş verib. 10 gündən çoxdur hoteldə istirahətə gələn turistlər arasında qusma, qızdırma, başağrısının yayıldığı bildirilir. Hadisənin baş verdiyi istirahət mərkəzinin adı “VOGUE Hotel Bodrum”dur.**



Hazırda orada ailəsi ilə birlikdə istirahət edən azərbaycanlı turistlər musavat.com-a bildiriblər ki, gəldikləri gündən bu yana özləri və ailə üzvləri yataq xəstəsinə çevriliblər. “Hotel rəhbərliyindən bunun səbəbini soruşduqda bildirir ki, virus hovuzdakı sudan keçib. Amma əminik bu, bəhanədi. Turistlərin ən azı 50 faizi hazırda xəstədir. Bu da o deməkdir ki, virus qidalardan, hoteldə turistlərə verilən yeməklərdən yayılıb” - deyə “VOGUE Hotel Bodrum”da olan azərbaycanlılardan biri saytımıza bildirib.

Başqa bir azərbaycanlı isə musavat.com-a deyib ki, hazırda xanımı və qızı virusa yoluxaraq yatağa düşüblər. Oğlunun və digər qızının isə bu gün zorla ayağa qalxdığını söyləyib.

Azərbaycanlı turistlərin daha bir əndişəsi virusun növünü bilmədiklərindən yanadır. Onlar deyir ki, bəlkə bu, elə təhlükəli virusdur ki, tez bir zamanda müdaxilə edilməli, həkim müayinəsindən, analizlərdən keçmək lazımdır. Bu rahatsızlıqlarını hotel rəhbərliyinə bildirsələr də indiyədək bir tədbirin görülmədiyini deyirlər.

Musavat.com olaraq “VOGUE Hotel Bodrum” istirahət mərkəzinin rəhbərliyi ilə əlaqə saxlayıb, baş verənlərə rəy almaq istəsək də, bu cəhdimiz baş tutmadı. Gedişatı təqib edib, gəlişmələr haqda oxuculara bilgi verməyə çalışacağıq.

Hazırda “VOGUE Hotel Bodrum”da olan azərbaycanlı turistlər musavat.com vasitəsilə sözügedən hotelə gəlmək istəyənlərə müraciət etdilər: **“Əsla bu hotelə gəlməyin. Özünüz, övladlarınız naməlum virusa yoluxacaq. Artıq bizim başımız dərddədir, barı siz gəlməyin”.**

❑ **Musavat.com**

# Zəvvarlarımız Həcc ziyarətinə hazırlaşır - kvota doldumu?

**İki həftədən sonra azərbaycanlı zəvvarların Həcc ziyarəti başlayacaq. Xatırladaq ki, bu il zəvvarlarımız Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) təşkilatçılığı ilə avqustun 11-15-i yola düşəcək, sentyabrın 1-5-i isə geri dönəcəklər.**



Bu il xidmətlərlə bağlı dəyişikliklər edilib. Belə ki, əvvəlki illərdən fərqli olaraq bu dəfə iki növlü səfər xidməti deyil, bir növlü xidmət olacaq. Həcc ziyarətinin xərcinə gəldikdə isə bu rəqəm ötən ildə olduğu kimim 4150 dollar olub. Azərbaycandan təkrar Həcc ziyarətinə gedəcək zəvvarlar ötən il olduğu kimi, əlavə 535 dollar ödəyib. Yaxın Şərqdə baş verən məlum münaqişələr üzündən bu ziyarət yalnız təyyarə reysləri ilə təşkil olunacaq.

Onu da xatırladaq ki, Həcc ziyarətinə qəbul fevralın 12-dən başlayaraq iyulun 15-dək davam edib. Bu il Həcc ziyarəti üçün Azərbaycana 1200 kvota ayrılmışdı. Bildirilirdi ki, əgər müraciət edənlərin sayı çox olsa, kvota sayı 2000-ə qədər artırıla bilər. Aprel ayının sonlarında verilən açıqlamaya görə, QMİ-yə sənəd verənlərin sayı 800 nəfər olub.

Bəs son olaraq bu il nə qədər zəvvar Həcc ziyarətinə yola düşəcək? Onların arasında hansı tanınmışlar var?

Məsələ ilə bağlı dəfələrlə QMİ ilə əlaqə saxlamağa çalışsaq da, zənglərimiz cavabsız qaldı.

Maraqlı bir faktı da qeyd edək ki, bu il Həcc ziyarətini asanlaşdırmaq üçün Səudiyyə Ərəbistanı “Məkkənin yolu” adlı üsul tətbiq edəcək. Türkiyə mətbuatının yazdığına görə, bu yenilik hələ ki Malayziya və İndoneziya üçün nəzərdə tutulub. Səudiyyə Ərəbistanının Hava limanı əməliyyatları direktoru Hişam Saidin müxbirlərə verdiyi açıqlamaya görə, bu il adıçəkilən ölkələrdən gələcək zəvvarlar “Məkkənin yolu” adlı verilən giriş kodu sayəsində bütün pasport işlərini öz ölkələrində olan hava limanlarında tamamlaya biləcəklər. Bununla da Ciddə və Məkkənin hava limanlarına gəldikləri zaman heç bir nəzarətdən keçmədən 2-3 dəqiqəlik qısa müddət ərzində, sadəcə, əl yükü ilə avtobuslara və oradan müqəddəs torpaqlara gedəcəklər. H.Saidi bu sistemin digər müsəlman ölkələri üçün də tətbiq ediləcəyini vurğulayıb.

❑ **Xalidə GƏRAY,**
**“Yeni Müsavat”**

# Nigar Camal rus oliqarxla bağlı iddialara cavab verdi

**“Eurovision-2011"in qalibi Nigar Camal şəxsi həyatı ilə bağlı gündəmə gəlib. Hazırda Moskvada istirahət edən müğənninin adı məşhur rus oliqarxla hallanır. Belə ki, Nigar sosial şəbəkədə yayılan videosunda o oliqarxın dəvəti ilə Moskvaya getdiyini və onun yaxtasında dincəldiyini deyir.**



Bundan əlavə, ifaçının 250 min dollarlıq avtomobillə çəkilən fotosu da söz-söhbətlərə səbəb olub. Sözügedən fotodakı avtomobilin oliqarx tərəfindən Nigara hədiyyə edildiyi iddia edilir.

Rus milyarderin adı çəkilməsə də, onun Camalla sevgili olduğu deyilir. İfaçının bahalı məkanlarda çəkdirdiyi fotolar da diqqət çəkir. Bəs adı gizli saxlanılan oliqarxla Nigarı nələr bağlayır?

Musavat.com məsələ ilə bağlı ifaçının fikirlərini öyrənib. Nigar oliqarxla sevgili olmasını inkar edib: **“Hazırda istirahət edirəm. Bu mövzu ilə bağlı heç nə deyə bilmərəm. Çünki boş şayiələrə verəcək cavabım yoxdur”.**

❑ **KÖNÜL,**
**Musavat.com**

# Qışda dəm qazı, yayda dəniz: necə edək ki, Xəzər "son mənzilimiz" olmasın?

## Dənizdə 14 nəfəri xilas eləmiş Mehman Əliyevdən qiymətli tövsiyələr...

**İyulun 25-də Xaçmaz rayon, Nabran qəsəbəsində ailə faciəsi yaşanıb. Rayonun Palçıqoba kənd sakinləri olan Dadaşova Ruhiyyə Eyvaz qızı, onun oğlu Dadaşov İkram Məmmədyar oğlu, həmçinin baldızı Qocayeva Kamilə İkram qızı və onun qızı Qocayeva Aysel Əfqan qızı Nabran qəsəbəsində dənizə çimməyə gediblər. 16 yaşlı İkram çimərkən boğulmağa başlayıb. Bunu görən anası, Ruhiyyə Dadaşova oğlunu xilas etməyə çalışıb, ancaq buna nail ola bilməyərək özü də suda boğulmağa başlayıb.**

Bu zaman Kamilə Qocayeva qardaşı arvadına və onun oğluna köməklik etməyə çalışıb, lakin boğulmaqda olan şəxsləri xilas etmək onun da həyatı üçün təhlükə yaradıb. Onunla birgə olan qızı Aysel Qocayeva da onlara köməklik göstərməyə çalışsa da, o da boğulmağa başlayıb. Nəticədə hər iki ana və övladları suda bataraq boğulublar.

Fövqəladə Hallar Nazirliyinin Kiçikhəcmli Gəmilərə Nəzarət və Sularda Xilasetmə Dövlət Xidmətinin ictimaiyyətlə əlaqələr və təbliğat şöbəsinin məlumatına görə, çimərlik mövsümü başlayandan 31 nəfər qeyri-çimərlik ərazisində boğulub, 128 nəfər boğulmaqdan son anda xilas edilib.

Sözügedən 4 nəfərə gəlincə isə hadisə FHN-in ən yaxın xilasetmə məntəqəsindən 2 kilometr aralıda baş verib. Boğulan iki ana və övladları xilasedici məntəqənin ərazilərində olsaydı, ölməzdilər. Xilasedicilər tərəfindən xilas olardılar. Necə ki, 128 nəfəri xilas ediblər.

Boğulma və boğulma təhlükəsi ilə üz-üzə qalmaq hadisələrinin bir çox səbəbləri var. Qeyri-çimərlik ərazilərindən istifadə, çimərliklərdə təhlükəsizlik qaydalarına biganə yanaşma. Xəzərdə sualtı maneələr, sualtı borular, yarğanlar və axınlar var ki, bunlar birbaşa insan həyatı üçün təhlükədir. Əfsus ki, çimərliyə gələnlər maarifləndirici lövhələrin tələblərinə də əməl etmirlər, üzmə şarlarını ötüb keçir, sərxoş halda dənizə girirlər. Güclü küləkli havada, hündür dalğalı dənizdə, dalğanın hündürlüyü üç baldan artıq olan zaman çimməyin qadağan olunmasına baxmayaraq, həyatlarını riskə ataraq özünə güvənmə instinkti ilə dənizə baş vururlar.

**Bütün bunları nəzərə alaraq, daha bir maarifləndirici yazı hazırlamaq qərarına gəldik. Müsahibimiz "Turan" agentliyinin direktoru, peşəkar üzgüçü, 4 il FHN-də Xilasedici Məntəqənin rəisi işləmiş Mehman Əliyevdir.**

**Mehman Əliyev müşahidələrini bizimlə paylaşdı:** "Müşahidələrimə görə, FHN-in xilasedicilərinin sayı əvvəlki illərə nisbətən bu il azalıb. Onların təchizatı da pisləşib. Qayıqlar və s. Bu da keyfiyyətli yardımın göstərilməsində problemlər yaradıb. Vətəndaşlara gəlincə, kim ki, üzə bilmir, nəsə baş versə, özünü xilas edə bilməyəcək, onlar çalışmalıdır, xilasedicilər olan çimərliklərdə çimsin. O ki qaldı ümumilikdə rəsmi çimərlik olsun, ya qeyri-rəsmi çimərlik olsun, nəzərə almaq lazımdır ki, dənizlə zarafat etmək olmaz. Dəniz kifayət qədər dəyişkən məkandır. Abşeronda küləklər tez-tez dəyişir. Lal külək əsir, sonra keçir şərqə, ya qərbə. Külək suyun istiqamətini də dəyişdirir. Müəyyən yerlərdə axın koridorları var, Zağulbada da belə axın koridoru var. Güclü şimal küləyi olanda insanları ora aparır. Təxminən 10 gün əvvəl bazar günü 4 nəfər orada batıb. Dəniz axınları küləyin istiqamətindən, sürətindən asılıdır. Bu incəlikləri bilməyən adamlar adətən problemlə üzləşəndə su onu çəkib aparır dənizə. Fırtınadan sonra dənizin dibi də dəyişir. Çünki bizdə qumdur, daş deyil, çuxurlar əmələ gəlir. Bu çuxurlar çox da böyük olmur, amma adətən insanın ayağı çuxura düşəndə çaşıb qalır, özünü itirir. Bu vəziyyət insanı təşvişə salır, əzələləri gərginləşir, özünü idarə edə bilmir və boğulmağa başlayır. Belə vəziyyətdə, sadəcə, yerin dibinə getmək, gözlərini açıb ətrafa baxmaq, sakitləşmək və çuxurdan çıxışı tapıb çıxmaq lazımdır. İlk növbədə çalışmaq lazımdır, təşvişə düşməyəsən. Nəsə baş verirsə, yardım çağırmaq lazımdır, özünü sınamamalısan. Üzə bilmirsənsə, dənizin xarakterini və onun davranışını bilmirsənsə, deməli, sahildən uzağa getməməlisən. Dənizlə şıltaqlıq etmək olmaz".





**M.Əliyev onu da qeyd edir ki, güclü küləkdə dalğa sahilə çırpılıb geri qayıdır. Bu zaman dalğa səni dənizə aparırsa, dənizə qarşı müqavimət göstərmək lazım deyil:** "Dalğa səni çox uzağa aparmır. Uzaqbaşı, 30-50 metr. Rahat suyun üstündə qalmaq və dalğa sakitləşəndən sonra sahilə tərəf üzmək lazımdır. Müqavimət göstərsək, taqətdən düşəcək və boğulmağa başlayacağıq".

**Peşəkar xilasedici boğulan insanı xilas etmə yollarını izah edir:** "Kimsə batırsa, şəraitə baxırıq. Boğulmaqda olan insana həmişə arxa tərəfdən yaxınlaşmaq lazımdır. Çünki panik vəziyyətdə olan adam birinci növbədə ona yardım edən adamdan yapışıb, qucaqlayır. Bu zaman onu xilas etmək istəyən adamı hərəkət etməyə qoymur. Özünü də batırır, onu xilas etməyə çalışanı da. Boğulan adama yaxınlaşanda çalışmaq lazımdır ki, birinci onu sakitləşdirəsən və arxadan yapışasan ki, səndən yapışmasın. Sizdən yapışdısa, dərindən nəfəs alıb suyun dibinə dalmaq və hərəkətsiz qalmaq lazımdır. Batan adam təngnəfəs olur deyə suyun altına girən kimi səni buraxacaq. Boğulan adamdan azad olunan kimi bir qədər kənarlaşıb, yenidən arxadan yaxınlaşmaq lazımdır".

**Mehman Əliyev 4 il xilasedici kimi çalışıb, 14 nəfəri ölümdən xilas edib:** "Xilasedici məntəqənin rəisi idim. Hər fırtınadan sonra dənizin dibini yoxlayır, çuxurlar olan yerlərdə qarşı-qırmızı şarlar atırdıq ki, çimərliyə gələnlər bilsin, o yerlər dərindir. Çimərlik ərazisindən uzaqlaşmağa qoymurduq. Bu addımları atmaqla təhlükənin xeyli qarşısını alırdıq. Adətən nəzarət olmayanda, özbaşınalıq olanda batma hadisələr daha çox olur. İşlədiyim müddətdə, sadəcə, 2 nəfər batıb. Onlardan birinin suyun üzərində ürəyi dayanıb, digəri isə balaca uşaq idi. Boğulan uşağın üzündə maska vardı. Yemək yeyib, üzünə maska taxıb və dənizə girmişdi. Suda hoppanıb və başı suyun dibindəki daşa dəyib. Yemək qayıdıb, nəfəs borusunu tutmuşdu. Biz onu sudan çıxartdıq, ürək masajı etdik, süni nəfəs verdik, amma uşağı o vəziyyətdən çıxara bilmədik. Uşağın nəfəsindən xeyli yemək çıxdı. Ona görə də yemək yeyəndən sonra suya girmək olmaz. Duzlu su adamın ağzına dolanda refleks olaraq qaytarmaq istəyir. Tox olanda yemək qayıdır geri və nəfər borusunu tutur. Dünyanın heç yerində belə şey yoxdur ki, dənizə yemək gətirəsən. Ancaq Azərbaycanda var belə şey. Çimərlik yemək yeri deyil".

**Mehman Əliyev çimərliyə gedənlərə tövsiyə edir ki, yaxşı üzsələr belə, məhdudlaşdırıcı şarları keçməsinlər:** "Baxmayaraq ki, yaxşı üzürəm, çimərlik ərazisində o şarları keçmirəm, təhlükəsizlik qaydalarını əməl edirəm. Başa düşürəm ki, xilasedicilərə hörmət etmək lazımdır. Ona görə də qeyri-rəsmi çimərlik ərazilərində üzürəm. Dənizin qırağında böyümüşəm. Evimiz dənizdən 200 metr aralı idi. Zağulbada qayalar var. 4-5 yaşım olardı. Qardaşlarım çimməyi bizə belə öyrədib. Qayaların üstündə otururduq, böyüklərin çimməyinə baxırdıq. Bir də gördün, arxadan bir təpik vururdular, düşürdük suya. Və çalışırdın ki, sudan çıxasan. Qışqıra-qışqıra, ağlaya-ağlaya. Düzdür, uzaq məsafə deyildi. Belə-belə üzməyi öyrənmişik. Dənizin qırağında böyüyən adamlar yaxşı üzür, dənizi yaxşı bilir. Adətən şəhərdən gələnlər, dənizi tanımayan adamlar boğulur. Bir dəfə dostlarımla qayıqla uzağa getmişik, dənizə atılandan sonra dostlarım zarafatla qayığı sürüb gediblər. Bilirlər ki, yaxşı üzürəm, sağ-salamat gələcəyəm. Onların arxası ilə 4-5 kilometr üzmüşəm. Bir saata yaxın üzdüm. Amma özüm belə şey etmirəm. 200 metr dənizə doğru gedəndən sonra sahil boyu üzürəm. Dediyim ki, dənizlə zarafat etmək olmaz. Suda çox qalanda əzələlər qıc olur. Məndə olub, iki ayaq birdən qıc olub, əllərimlə üzüb sudan çıxmışam. Sahildən də çox uzaq olmamışam. 150 metr aralı idim. Yaxşı üzmək üçün hərəkətlə nəfəs arasında sistemlilik vacibdir. Bu yoxdursa, təngnəfəslik yaranır. Əsasən insanı qüvvədən salan da təngnəfəslik olur. Düzgün nəfəs almırsan və tez yorulursan. Nəfəsi tənzimləyəndən sonra hər şey qaydasında olur. Ona görə də hər kəs çalışmalıdır ki, bunu öyrənsin. İstər dənizdə üzəndə, istər hovuzda. Onda sən daha uzun məsafəyə və yaxşı üzə bilərsən. Ən azından hər hansı bir hadisə olsa, səni xilas edənə qədər suyun üstündə çox qala bilərsən. Dalğalı dənizdə isə ümumiyyətlə, çimmək olmaz. Təhlükəlidir".

❑ **Ləman MUSTAFAQIZI, "Yeni Müsavat"**

## Bu il nə qədər məcburi köçkün sevindiriləcək? - "Qaçqınkom" aydınlıq gətirdi

**Artıq bir neçə ildir ki, Ermənistan silahlı qüvvələrinin hərbi təcavüzü nəticəsində öz doğma yurdlarından didərgin düşən soydaşlarımız üçün yaşayış kompleksləri, binalar tikilir. Bu günə qədər ağır şəraitdə yaşayan çoxlu sayda məcburi köçkün ailəsi yeni mənzillərə köçürülüb.**



Belə ki, bu günlərdə sayca 98-ci olan məcburi köçkünlər şəhərciyi istifadəyə verilib. Xatırladaq ki, "Qobu Park" adlanan bu yaşayış kompleksinin ümumi sahəsi 6,4 hektardır. Burada 2 bloklu, 9 mərtəbəli, 1026 mənzilli 11 yaşayış binası inşa olunub. Yaşayış kompleksinə üçmərtəbəli məktəb binası və uşaq bağçası da daxildir. Həmçinin burada digər zəruri infrastruktur obyektləri - 350 yerlik mərasim evi, poçt, tibb, polis məntəqələri və mənzil-istismar idarəsi də yaradılıb. Ərazidə 35 min kilovatlıq yarımstansiya inşa edilib, istirahət parkı salınıb, uşaq meydançaları qurulub.

Buradakı mənzillərdən 108-i birotaqlı, 396-sı ikiotaqlı, 360-ı üçotaqlı, 162-si isə dördotaqlıdır. Mənzillərin ümumi sahəsi 73 min kvadratmetrdir. Bütün mənzillər təmir edilib və mətbəx mebeli ilə təchiz olunub. Məlumata görə, hazırda Bakının Nizami, Suraxanı, Xətai, Nərimanov və Səbayel rayonlarında müvəqqəti məskunlaşan ailələrin bu kompleksə köçürülməsi davam etdirilir. Artıq 200-dən çox ailə ərazidəki mənzillərdə məskunlaşıb.

Qeyd edək ki, hazırda paytaxt Bakıda qəzalı binalarda məskunlaşan çoxlu sayda məcburi köçkün ailəsi var. Onların arasında Xocalıdan olan məcburi köçkünlər üstünlük təşkil edir. Bəs həmin məcburi köçkünlər nə zaman sevindiriləcək?

Məsələ ilə bağlı Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi ilə əlaqə saxladıq. Qurumun mətbuat xidmətindən "Yeni Müsavat"a bu cür açıqlama verildi: "Hazırda "Ümid" qəsəbəsində yeni 5 mərtəbəli bina tikilir. Bina 300 mənzildən ibarət olacaq. Həmçinin Kürdəxanıda 9 mərtəbəli 800 ailə üçün bina tikilir. Abşeron rayonu ərazisində isə Sumqayıtda məskunlaşmış məcburi köçkünlər üçün 1000 mənzillik binanın tikintisinə başladılıb. O cümlədən Pirallahı qəsəbəsində yeni 300 mənzillik 9 mərtəbəli binanın inşasına başladılıb. Lökbatan qəsəbəsində "Qobu Park" yaşayış kompleksində 1026 mənzilli bina tikilib. Hazırda həmin yaşayış kompleksinə ailələrin köçürülməsi davam etdirilir".

❑ **Xalidə GƏRAY, "Yeni Müsavat"**

Yeni Müsavat
N 160 (7049) 27 iyul 2018



# Ailəvi gələnlər üçün iaşə obyekti

**Samir SARI**

**Yəqin hamınız fikir vermisiniz, paytaxtda, eləcə də rayonlarda, xüsusilə də yaşıl bölgələrdə bir çox iaşə obyektlərinin reklam lövhələrində belə bir qeyd olur: "Ailəvi istirahət məkanı".**

Çox xub. Bu, o deməkdir ki, bura sakit yerdir, əxlaqsızlıq yuvası, priton-mriton deyil, sakitcə bir küncə çəkilib ailə-uşağınla istirahət edə bilərsən.

Bu iş təzə-təzə dəb olanda, güman ki, elə olub. Amma biləndar adamlar deyirlər ki, bir çox istirahət məkanları bu ifadədən ("ailəvi") şirma kimi istifadə edirlər, əslində isə qapıları istirahət məkanına lotuluğa, türkün sözü, qaçamağa gələnlər üçün taybatay açıqdır, onlara hər cür şərait yaradırlar.

Kənardan baxan nə bilir ki, bahalı maşından düşən əks-cinsli cütlük bir-biri ilə nikah münasibətində deyillər, sadəcə, aşiq-məşuqdurlar.

Əslində bunun o iki nəfərdən başqa heç kəsə dəxli yoxdur, onlar özlərini "ailə" hesab edirlərsə, kim nə deyə bilər.

Məsələnin o tərəfi heç, amma bu tərəfi adama problem yaradır. Tutaq ki, siz 5 nəfər kişi, keçmiş tələbə yoldaşları yolüstü o məkana dönmək, "bir qısmat" çörək yemək istəyirsinizsə və bağ-bağatın sərin yerində özünüzə yer eləmək niyyətindəsinizsə, bığ yeri yenicə tərləmiş bir növcavan yaxınlaşır, deyir, əmi, bura sizlik deyil, ailə ilə gələnlər üçündür, siz gəlin bu tərəfə keçin.

Höcət adam deyilsənsə, keçirsən, görürsən, bura günün altıdır, milçək vızıldaşır, iy-qoxu baş çatladır. Təbii ki, əsbiləşirsən, istirahət haram olur.

Tərs kimi, paytaxtın özündə, düz mərkəzində də belə məkanlar var.

Srağagün axşamüstü dostlardan biri ilə Qış bulvarı tərəfdə görüşüb söhbətləşmək qərarına gəldik. Görüşdük. Xoş-beşdən sonra dedik, yaxınlıqdakı "Zanbaq" adlı kafe-restoranda oturaq. Getdik. Açıq havada, kölgədə, hovuzun qırağında oturmaq istədik. 30-40 (bəlkə də çox) masalıq bir kafe-restoranda yanımızı stula qoymamışdıq ki, 17-18 yaşlı bir gənc yaxınlaşdı, ədəb-ərkanla dedi: "Müəllim, bura ailəvi gələnlər üçündür".

Biz də ədəb-ərkanla dedik ki, qaqa, bura onsuz da boşdur, bizim də yarım saatlıq söhbətimiz var, adama iki stəkan çay içib gedəcəyik.

Oğlan dedi ki, yox, ailəvi qonaqlarımız bir azdan gələcəklər, müdiriyyət ailəsiz gələnlərin burada oturmasına icazə vermir.

İşə düşmədikmi! Ətrafa baxdıq, uzaqdakı masada bir gənc sarışın qadın və bir orta yaşlı kişi oturmuşdu, qətiyyən ailə-filan deyildilər. Demək ki, bu məkan xaricdəki bəzi gecə barlarında olan qaydanı tətbiq edir, qadınsız gələnləri içəri buraxmır.

İndi nə edək, bir stəkan çay içmək üçün küçədən keçən qadınlardan kömək istəyəkmi? Allahdan, hava istiydi, çaya-suya ciddi tələbat vardı.

Ofisiant gəncə dedik ki, qaqa, bu ayrı-seçkilikdir axı, istehlakçı hüququmuzun pozulmasıdır, rəsmən doğma şəhərimizdə bizə qarşı ikinci sort insan kimi davranırsınız.

Görünür, gənc ofisiant, eləcə də ona yaxınlaşan daha iki həmkarı belə ifadələrdən, o cümlədən insan haqlarına dair Avropa konvensiyalarından bixəbər idilər, ona görə də məlul-məlul baxaraq çiyinlərini qısdılar.

Jurnalist damarı bir tərəfdən, höcətlik damarı o tərəfdən yoğunlamağa başladı, dedim, çağırın müdiriyyətinizi, gəlsin, ona dünyanın neçə bucaq olduğunu başa salaq. Gənclər yenə məzlum-məzlum baxdılar.

Dostum 20 ilin hüquqşünası olduğu üçün situasiyadan optimal çıxış yolu tapdı, dedi, eybi yox, gəl, gəncləri danlatmayaq, gedək çayı "İnnabı"da içək.

Razılaşdıq. "İnnabı"ya yollandıq. Yolda dostuma zarafatla dedim ki, gəl ərəblər kimi danışanda "ləhlülü" deyək ki, bizə hörmət qoysunlar, yer versinlər.

Məlum oldu ki, "İnnabı"da da eyni vəziyyətdir, məkanın ən sərin guşəsi "ailəvi gələnlər" üçündür, amma o tərəfdə bizim kimilər üçün də yer var. Daha höcətliyin yeri yox idi. Oturduq, dünyanın ən bahalı (stəkanı 4 manat) çayını içdik , söhbətimizi etdik, durduq. Təxminən 1 saatdan sonra yenidən "Zanbaq"ın önündən keçəndə diqqət etdim ki, məkanın "ailəvi qonaqlar"ı hələ də gəlməyiblər, uzaqdakı küncdə oturmuş "ailə" isə telefonda qurdalanır.

Düşünürəm ki, birdən "Zanbaq"a iki holland boy-frendlər gəlsə, oturub çay istəsələr, ofisiantlar onlara "bura ailəvi gələnlər üçündür" desələr, onlar da "biz ailəyik" deyə ciblərindən nikah şəhadətnaməsi çıxarıb göstərsələr, nə baş verər?

Belə iaşə xidməti başqa hansı ölkədə var, ay bilənlər?

# İlahiyyat İnstitutu savadlı mütəxəssislərə ehtiyacı ödəyə biləcəkmi?

## Kənan Rövşənoğlu: "Dövlətin güvəndiyi kadr bankının hazırlanması işinin başlanğıcı qoyulub, ancaq..."

**Yunis Səfərovla birlikdə Gəncə şəhər icra başçısı Elmar Vəliyevə qarşı sui-qəsd törətmək planlarını hazırlamış şəxslərdən daha biri məhv edildi. Yayılan məlumatlara görə, Cinayət Məcəlləsinin terrorçuluq, qəsdən adam öldürmə və dövlət xadiminin həyatına sui-qəsd etmə maddələrinə görə axtarışda olan, Gəncə şəhər sakini Sərxani Ağa Hüseyn oğlu silahli müqavimət göstərdiyinə görə "Aslanlar" qrupu tərəfindən öldürülüb.**



Müəyyən edilib ki, o, 2016-cı ildə Suriya ərazisində silahlı birləşmələrin tərkibində döyüş təlimi keçib, mütəmadi olaraq İrana səfərlər edib. İndiyə qədər Azərbaycandan dini təhsil almaq üçün xarici ölkələrə gedib, orada müxtəlif radikal qruplaşmalara qoşulan şəxslərlə bağlı mətbuatda xeyli sayda məlumat dərc olunub. Dini təhsil adı altında İranın Qum şəhərinə və digər yerlərə gedən bu kimi şəxslər sonradan İslam dinindən uzaq, hansısa dairələrin ideologiyasına xidmət edən qrupların təsir dairəsinə düşürlər. Həmin dairələrin məqsədi isə sonda bu şəxslərdən istifadə edib, Azərbaycanın dövlətçiliyinə qarşı təxribatlar törətmək olur.

Yuxarıdakı məlumatdan da göründüyü kimi, Gəncə hadisələrini törədən şəxslər də konkret olaraq bir qrup bu kimi təsirlərə məruz qalan radikal dindarlardır. Azərbaycanda digər təxribatlar kimi dini radikal kəsimin təxribatçı əməllərinin qarşısını almaq üçün də müvafiq qurumlar tərəfindən işlər aparılır. Eyni zamanda insanların ölkə daxilində lazımi dini təhsil almaları da düşünülüb. Belə ki, bu ilin 9 fevral tarixində prezident İlham Əliyevin sərəncamı ilə Azərbaycan İlahiyyat İnstitutu yaradıldı. Bu institut Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin tabeliyində fəaliyyət göstərir. Eyni sərəncamla Bakı Dövlət Universitetinin İlahiyyat fakültəsinin Azərbaycan İlahiyyat İnstitutunun strukturuna daxil edilməsinin təmin edilməsi Azərbaycan Respublikasının Təhsil Nazirliyinə tapşırılıb.

İnstitutun yaradılması ilə bağlı qeyd olunan məlumatda bildirilir ki, institutun yaradılmasında məqsəd Azərbaycan xalqının tarixi ənənələrinə söykənən və dövlət siyasətinin məntiqi nəticəsi olan yüksək dini-mənəvi mühitin qorunub saxlanılmasını və inkişaf etdirilməsini, dini fəaliyyətin təşkili sahəsində yüksək ixtisaslı kadrların hazırlanmasını təmin etməkdir.

**Bəs Azərbaycan İlahiyyat İnstitutu üzərinə düşən missiyanı yerinə yetirə biləcəkmi? "Yeni Müsavat"ın dini eksperti Kənan Rövşənoğlu da hesab edir ki, hökumətin İlahiyyat İnstitutunu yaratmaqda əsas məqsədi Azərbaycan vətəndaşlarının dini təhsil almaq üçün xaricə getmələrinin qarşısını almaqdır:** "Çünki 1990-cı illərdən bəri 3 mindən çox Azərbaycan vətəndaşı Misirdə, Səudiyyə Ərəbistanında, Suriyada, İranda, Türkiyədə, qismən də İraqda dini təhsil alıb. İndi isə hökumət dini təhsil sahəsində irəliyə yönəlik addımlar ataraq, Azərbaycanda dini təhsili inkişaf etdirmək istəyir. Doğrudur, Bakı İslam Universiteti var idi. Ancaq orada təhsil ödənişli idi. Xaricdə isə bu, belə deyil. Çünki dini qaydalara əsasən, dini təhsillər adətən vəqf hesabına olur. Bütün dinlərdə belədir ki, dini təhsillər dini ianələr hesabına formalaşır. Azərbaycan hökuməti bunu ölkədə tətbiq etmək istəyir ki, dövlət hesabına pulsuz dini təhsil versin. Bununla da Azərbaycanda din xadiminə olan ehtiyacı yerli təhsil ocaqları hesabına təmin etmək istəyir. Plan bundan ibarətdir. Ancaq hesab edirəm ki, birdən-birə bunu etmək mümkün deyil. Məsələn, bizdə institut yaradıldı, ancaq bu il ora cəmi 60 nəfər qəbul var. Bu, o demək deyil ki, yuxarıda sadaladığımız ölkələrə ilahiyyat təhsili almaq üçün gedən olmayacaq. Çünki birincisi, rəqabət baxımından qonşu ölkələrin güclü dini təhsil təcrübəsi var. Bu təcrübə hətta min ildən də çoxdur. Birdən-birə bundan imtina etmək inandırıcı deyil. Ancaq ən azından hökumət düşünür ki, daxildəki rəsmi din xadimi təyinatlarını məhz Azərbaycanda, dövlətin məktəblərində təhsil almış islamşünaslar hesabına ödəsinlər. Bununla da tədricən xaricdə dini təhsil almağın perspektivsizliyi ortaya çıxacaq. Çünki onlara artıq Azərbaycanda rəsmi iş verilməz. Daxili kadr ehtiyatları olduqca, artıq xaricdən gələnlər kənarda qalacaq. Qanunda da var ki, xaricdə təhsil alanlara dini vəzifə tutmaq qadağandır. Sadəcə, istisna hallarda hökumətin müvafiq qurumlarının icazəsi olarsa, xaricdə təhsil alan şəxs dini vəzifə tuta bilər. Bu cür qadağalarla tədricən yerli ehtiyacları Azərbaycanda təhsil almış kadrlar hesabına ödəyəcəklər. Bunun üçün də müəyyən zaman lazımdır. Çünki rəqabət üçün burada da dövlətin dəstəklədiyi güclü mərkəz olmalıdır. Bu mərkəzin yaranması, qeyd etdiyim kimi, müəyyən vaxt olacaq. Dövlətin özünün güvəndiyi kadr bankının hazırlanması işinin başlanğıcı qoyulub. Azərbaycan İlahiyyat İnstitutunun yaradılması bu yöndə birinci addımdır".

❑ **Əli RAİS,
"Yeni Müsavat"**

# Xanlar Vəliyev: "Gəncə hadisələri xarici xüsusi xidmət orqanlarının planlaşdırdığı cinayətdir"

**"İyunun 26-da keçirilən möhtəşəm hərbi paradda Azərbaycanın hərbi qüdrətinin dünyaya nümayiş etdirilməsini və ölkəmizin bütün sahələrdə surətlə inkişaf edərək əksər dövlətlərdən üstün olmasını gözləri götürməyən radikal müxalifət və dini-ekstremist təşkilatların üzvləri ölkəmizə qısqanc və düşmən münasibət bəsləyən dövlətlərin xüsusi xidmət orqanları ilə birgə respublikamızda sabitliyi, əhalinin sakit həyatını pozmaq və qarşıdurma yaratmaq məqsədilə iyulun 3-də və 10-da Gəncədə dövlətçiliyimizə və ölkədəki sabitliyə yönəlmiş qanlı terror hadisələri törədib, şəhər icra hakimiyyətinin başçısına və onun mühafizəçisinə qarşı sui-qəsd edib, asayişin kobud şəkildə pozulmasının qarşısını almağa çalışan yüksək rütbəli iki polis zabitini qətlə yetiriblər".**



APA-nın məlumatına görə, bu sözləri Respublika Hərbi Prokurorluğunda keçirilən əməliyyat müşavirəsində çıxış edən hərbi prokuror Xanlar Vəliyev deyib. X. Vəliyev bildirib ki, prezident İlham Əliyevin qətiyyətli və müdrikliklə atdığı addımların nəticəsində bütün bu təxribatların qarşısı sərt şəkildə alınıb: "Azərbaycan Respublikası Baş Prokurorluğunda Cinayət Məcəlləsinin 214.2.1-ci, 214.2.3-cü, 214-2-ci, 281.1-ci və digər maddələri ilə başlanmış cinayət işinin istintaqını aparan Respublika Prokurorluğunun, Daxili İşlər Nazirliyinin və Dövlət Təhlükəsizliyi Xidmətinin əməkdaşlarından ibarət birgə əməliyyat-istintaq qrupu tərəfindən cinayəti törətmiş şəxslər müəyyənləşdirilib, onlardan bir qismi həbs edilib, axtarışa verilib, digər iştirakçıların da müəyyənləşdirilərək cinayət məsuliyyətinə cəlb olunması istiqamətində əməliyyat-istintaq tədbirləri davam etdirilir. Həmin hadisələrin təhlili və istintaqı əminliklə deməyə əsas verir ki, bu, sadəcə, özlərini hansısa dini təşkilat adlandıranların deyil, xarici ölkələrin xüsusi xidmət orqanlarının əvvəlcədən planlaşdırdığı və ölkənin daxilində, habelə Azərbaycandan kənarda olan, lakin ölkəmizə düşmən münasibət bəsləyən Azərbaycan vətəndaşlarının həyata keçirməyə cəhd etdikləri cinayətlərdir. Bunlar adi cinayətlər deyil, ölkəmizdə hakimiyyətin zorla ələ keçirilməsinə, Azərbaycan Respublikasının Konstitusiya quruluşunun zorla dəyişdirilməsinə və ya ərazi bütövlüyünün parçalanmasına yönəlmiş hərəkətlərdir. Lakin Azərbaycan Respublikası prezidentinin qətiyyəti və müdrikliyi, habelə hüquq-mühafizə orqanlarının səyi nəticəsində bütün bu təxribatların qarşısı sərt şəkildə alınıb. Həmçinin iyulun 15-də Sumqayıtda radikal dini qrupların və onlara dəstək verən radikal müxalifət tərəfdarlarının Gəncədə baş vermiş hadisələri Sumqayıtda təkrarlamaq, iğtişaş və qarşıdurma yaratmaq yolu ilə şəhərdə ictimai-siyasi sabitliyi pozmağa yönəlmiş hərəkətlərinin qarşısı hüquq-mühafizə orqanlarının peşəkarlıqla həyata keçirdiyi əməliyyat nəticəsində alınıb".

YENİ MÜSAVAT
N 190 (7049) 27 iyul 2018

**Ermənistanın yeni xarici işlər naziri Zöhrab Mnatsakanyanla Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov artıq iki dəfə görüşüblər. E.Məmmədyarov bir neçə gün öncə Z.Mnatsakanyanla görüşdən sonra açıqlamasında deyib ki, erməni həmkarı onda peşəkar diplomat təəssüratı yaradıb. O, "keçmiş nazir Edvard Nalbəndyandan fərqli olaraq yenisi peşəkardır" deyib.**

# Politoloqdan erməni həmkarını tərifləyən Məmmədyarova sərt cavab

**Elxan Şahinoğlu:** "Zöhrab Mnatsakanyanın "peşəkarlığına" arxayın olmaqdansa, Azərbaycan ordusunun peşəkarlığından yararlanmaq daha faydalıdır"
**Yeganə Hacıyeva:** "Erməni nazirdə ritorika dəyişmiş ola bilər, ancaq mövqe köhnə mövqedir"



Bəs Azərbaycanın torpaqlarını işğalda saxlayan Ermənistanın xarici işlər nazirinin peşəkar olması kimin xeyrinədir? Ümumiyyətlə, Ermənistanın yeni xarici işlər nazirinin peşəkar olmasının Qarabağ danışıqları üçün hansı əhəmiyyəti ola bilər?

**Politoloq Elxan Şahinoğlu** "Yeni Müsavat"a bildirdi ki, Elmar Məmmədyarovun "Ermənistanın yeni xarici işlər naziri Zöhrab Mnatsakanyan məndə peşəkar diplomat təəssüratı yaradıb" sözlərinin nə məna daşıdığı ona aydın deyil: "Bəlkə də Zöhrab Mnatsakanyan Elmar Məmmədyarovun dediyi kimi, Edvard Nalbəndyandan daha peşəkardır, ancaq bu nəyi dəyişəcək ki? Bizə lazımdır ki, "peşəkar diplomatlar" Dağlıq Qarabağ münaqişəsinin həllini sürətləndirsinlər. Ancaq həmin "peşəkar diplomatlar" bunu 25 ildə bacarmadılar və bir 25 il keçcə yenə də bacarmayacaqlar. Ona görə də Zöhrab Mnatsakanyanın "peşəkarlığına" arxayın olmaqdansa, Azərbaycan ordusunun peşəkarlığından yararlanmaq daha faydalıdır.

Ermənistanın baş naziri Nikol Paşinyan son bir ayda dünyanın müxtəlif televiziya kanallarına, radiolarına, qəzetlərinə xeyli müsahibə verib. Paşinyan ona olan maraqdan gen-bol istifadə edir. Müsahibələrin əksəriyyətini izləmişəm və ya oxumuşam. Paşinyan müsahibələrində Azərbaycan əleyhinə xeyli fikir söyləyib, Ermənistanın mövqeyinin haqlı olduğunu iddia edib. Əlbəttə, Paşinyanın yalan danışdığı aydındır, məsələn, son müsahibəsində "Ermənistanda bir azərbaycanlının burnu belə qanamayıb" deyəndə bunun necə böyük yalan olduğunu bilirik. Ancaq bunun yalan olduğunu biz bilirik, bu arqumenti darmadağın edən kifayət qədər fakta malikik. Ancaq xarici ölkələrdə bunu bilmirlər və beləcə, münaqişəyə Paşinyanın müsahibədə dediyi sözlərlə baxırlar. Biz bu yalanların qarşısını almaq və Paşinyan kimi Azərbaycandan da verilən müsahibələrin sayını artırmaq əvəzinə xarici işlər nazirimiz Elmar Məmmədyarov deyir ki, "Mnatsakanyan məndə peşəkar diplomat təəssüratı yaradıb". Bəlkə də o, Məmmədyarovun dediyi kimi, Nalbədyandan daha peşəkardır, ancaq bunun bizə nə faydası var? Onlar bizim əleyhimizə yalanlarını səsləndirirlər, biz isə onların "peşəkarlıqlarından" dəm vururuq".

**Siyasi ekspert Yeganə Hacıyeva** isə bildirdi ki, Ermənistan dövlətinin xarici siyasət xidməti özlüyündə müharibə şəraitində hakimiyyətə gəlmiş militar və populist səhra hərbçilərinin, müharibə cinayətkarlarının formalaşdırdığı xarici siyasət xidmətidir. Uzun illərdir Ermənistan xarici siyasət xidmətinin istər ölkə daxilində, istərsə də beynəlxalq təşkilatlardakı təmsilçiləri diplomatik sferada ümumi diplomatik etik qaydalara, bir çox hallarda isə adi etik davranış qaydalarına belə əməl etməmək kimi adət-ənənə formalaşıb: "İstər bizim XİN rəsmiləri, istərsə də beynəlxalq qurumların nümayəndələri, tədbirlərin təşkilatçıları üçün erməni diplomatlarının diplomatik peşəkarlıq və təcrübəyə uyğun olmayan mövqelərini müşahidə etmək, müxtəlif mövzular üzərində təzadlı mövqelərini, yalanlarını, uydurmalarını dinləmək məcburiyyətindədirlər.

Əlbəttə ki, Dağlıq Qarabağ konfliktinin nizamlanması missiyası ilə erməni həmkarları ilə tez-tez təmasda olan, onların təbiətinə dərindən bələd olan biri kimi Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov müzakirələrdə nəyin bahasına olur-olsun özlərini haqlı göstərmək üçün hər yola əl atan Ermənistanın Xarici İşlər Nazirliyi rəsmiləri ilə daha çox üzləşib. Ermənistanın yeni xarici işlər naziri Zöhrab Mnatsakanyanla görüşdən sonra sələfindən fərqli olaraq, onun peşəkar diplomat təəssüratı yaratması haqqında fikirləri də məhz bu haldan qaynaqlanıb".

**Ermənistanın yeni xarici işlər nazirinin peşəkar olmasının Qarabağ danışıqları üçün hansısa əhəmiyyət daşıya biləcəyinə gəlincə, Y.Hacıyeva dedi ki, peşəkar diplomatlar və xarici siyasət xidmət rəsmiləri üçün, öz dövlətlərinin hüquq və milli maraqlarına hörmətdən kənarda, həmçinin beynəlxalq hüquq və normalara hörmət xüsusiyyəti mövcud olmalıdır. Bu isə istər Azərbaycan tərəfi, istərsə də konfliktin həllində nizamlayıcı missiya daşıyan beynəlxalq qurumlarla onlarla müzakirələrin aparılmasını daha da asanlaşdırır:** "İstənilən halda müzakirələrdə militar, populist ritorika ilə danışan diplomatdansa, beynəlxalq hüquq və qaydalara əməl edən diplomatlarla müzakirə aparmaq daha asandır. Onlarla bu müzakirələrin bir nəticəsi olacaq və ya olmayacaq, bu artıq ayrı bir mövzudur.

Sırf Ermənistanın Xarici İşlər Nazirliyinin yenilənməsi üzərindən Dağlıq Qarabağ konfliktinin sülh yolu ilə həllində irəliləyişlərin mümkünlüyü fikrinə gəldikdə, mən bu fikrə o qədər də optimist yanaşmıram. Yeni hökumət və XİN-də ritorika dəyişmiş ola bilər, ancaq mövqe köhnə mövqedir və səhra hərbçilərinin mövqeyindən heç nə ilə fərqlənmir".

❑ Etibar SEYİDAĞA,
"Yeni Müsavat"

# Turizm sektorunun kölgəsatanları



**Elşad PAŞASOY**
epashasoy@yahoo.com

**O ərəb var idi e, hansısa istirahət mərkəzinin hotelini mundarlamışdı... Yəqin xatırladınız. Bu xəbəri eşidən kimi hamımız o çölləməni lənətlədikmi? Təbii ki. Eyni məntiqlə ərəblər - həm də təkcə ərəblər yox - başqa bir istirahət mərkəzində ağacın kölgəsini (!) turistə 5 manata satan azərbaycanlının da ünvanına bir sıra ifadələr işlədib, şübhəsiz.**

Dünənə qədər şikayətlənirdik ki, məsələn, qonşu Gürcüstan turizmdən milyardlar qazanır, bizim ölkəyə isə turist gəlmir. İndi insafən, əvvəlkinə baxanda infrastruktur qurulub, hotellər, istirahət mərkəzləri var, üstəlik də Allah öz lütfünü əsirgəməyib bu məmləkətə kölgəli ağaclar verib. İndi turizm obyektinin əməkdaşı turistin "üstünü unlu görüb, onu dəyirmançı bilirsə", yəni ərəb görən kimi onda pulun zibil kimi olduğunu düşünüb də, qaz vurub, qazan doldurmağa çalışırsa, ən azı çox ayıb!

Bu, artıq görməmişlikdir, ehtiyacdan irəli gəlmir. Həm də Azərbaycan dövlətinin, millətinin adını batırmaqdır. Turizm elə bir sektordur ki, burada yaxşı, keyfiyyətli xidmət, normal münasibət olsa, pul xərcləyib ölkənin gəzməli, görməli yerlərini reklam etməyə lüzum qalmaz. Yəni ölkəmizə gələn hər bir turist qayıdandan sonra öz ölkəsində Azərbaycanın pulsuz təbliğatını aparacaq, bu, şübhəsizdir.

Amma bizim bəzi işbazlarımız 5 manat artıq qazanmaq naminə ölkəmizin əleyhinə təbliğat aparmaq imkanı verirlər turistlərə. "Kölgəpulu" ödəyən həmin ərəb qayıdandan sonra bizim haqqımızda nə deyəcək, fərqindəsinizmi? Deyəcək, əşi, gedin filan ölkədə dincəlin, bu məmləkətdə ağacın kölgəsində oturduğuma görə də məndən pul qopartdılar. Ayıb deyilmi?!

Hələ bu, ərəbin başına gələn olaydır, ictimailəşdiyi üçün xəbərdar olmuşuq. Kim bilir o kölgədə neçə-neçə turistlər "tərləyib", nə qədər "beşlik"lər qoparılıb. Düşünmürük ki, o ərəb uzaq səhralıqdan bura ona görə gəlib, Azərbaycanı ona görə seçib ki, bu gözəl diyarın kölgəli ağacları, çayı, dağı, dərəsi var. Bəli, pul xərcləyib istirahət etmək üçün gəlib, amma daha kölgə üçün pul verməyə yox!

Bizim turizmlə əlaqəli olan bəzi adamlar düşünmək istəmirlər ki, turist axını əlavə pullar, imkanlar, dolanışıq, rifah deməkdir. Ölkəmizə turist axını olacaqsa, çayxanada işləyən də qazanacaq, yol qırağında böyürtkən satan uşaq da, isti təndir çörəyinin satışı ilə məşğul olan nənə də. Elə isə niyə bu qazancın davamlı olmasını istəmirik, birdəfəlik, baltanı kökündən vurmağa çalışırıq?

Oxuyuram ki, bir ərəbi bulvardan "28 May"a qədər aparan taksi ondan 20 manat qoparıb. İnsafdırmı? Deyək ki, ərəb təzə gəldiyi gün aldandı, bəs sabah real qiyməti biləndə nə düşünəcək, nə deyəcək?

O gün özüm şahidi oldum. "Park Bulvar"ın qarşısında əcnəbi xanım taksiyə yaxınlaşıb getmək istədiyi ünvanı dedi. Başqa bir sürücü həmkarına "ə, tanımırsan, iki tin o yandadır, apar, 5 manatı qoy cibinə". Bunu eşidən sürücü "hə, bildim" dedi və qıza tərəf çevrilib iki əlinin barmaqlarını göstərdi. Yəni 10 manat verəcəksən. Burdan-bura qiymət iki dəfə qalxdı.

Bu insanları niyə sürətlə ölkədən qovmağa çalışırıq? Onlar pullarını sağ-sola səpməyə gəlməyiblər e. Heç kim də pulundan bezməyib. Hələ bunlar 5-10 manat söhbətidir. İndi görün yemək-içməyə nə qədər pul tələb olunur, 60 qəpiklik qarpız neçəyə hesablanır. Hotel qiyməti bir yana.

Dövlət çalışır ki, turizmi inkişaf etdirsin. Düz də edir. Neftdən sonrakı Azərbaycan üçün ən faydalı və gəlirli sahələrdən birini niyə inkişaf etdirməsin ki? Burada həm dövlət qazanır, həm iş adamı, həm də sadə vətəndaş. O qədər sadə insan evini turistə kirayə verib dolanır ki. Nədən bu cür gəlirli sahəni tormozlayan hərəkətlərə yol veririk?

Kimi dindirirsən deyir "əşi, şəhəri ərəblər götürüb başına". Yaxşı, onlar da gəlməsin, bundan nə fayda? Etiraf edək ki, bizim turizm sektoru hələlik Avropanın inkişaf etmiş ölkələrinin turistlərini qarşılamaq gücündə deyil. Ərəblə "kölgəpulu" davası eləmək olar, amma avropalı ilə bu sövdələşmə baş tutmaz. Həm də bizim indiki qiymətlər və xidmət sektoru olsa-olsa ərəbi razı sala bilər, nə qədər ki, Avropa standartlarına çata bilməmişik. Ərəbləri qaçıracağıq, onlar da üz tutacaqlar başqa ölkələrə, pullarını ora axıdacaqlar.

Ancaq bu da var ki, təkcə ərəbin qənimi deyilik, elə özümüzə də qənim kəsilmişik. O gün uşaqlı-böyüklü təqribən 15 nəfər dənizə getmişdik. Girişdə adambaşına 10 manat istədilər! Təsəvvür edin, kölgəli yerdə oturmaq üçün 10 manat! İndi deyin, işbazlar üçün ərəb olub-olmamağın fərqi varmı?

**P.S.** *Amma kim bilir, bəlkə bundan sonra Bakıda ağacları qorumağa başlayacaqlar, kölgəsindən pul qazanmaq üçün...*

YENİ MÜSAVAT
N 160 (7049) 27 iyul 2018



# Xəyallarımızın avtobusu

Zamin HACI
zaminhaci@gmail.com

"Sən allah yağma yağış, yenə qrip olacam,
Yenə dəli olacam, yenə qərib olacam.
Çox ümid eləyirəm, sabah açılan kimi,
Minəcəm avtobusa, yenə diri olacam"
*(müəllifin şəxsi yaradıcılığından)*

**Bu dəqiqə cəmiyyətimizi düşündürən, narahat edən, sıxan, tərlədən, üzən, öldürən əsas problemlərdən biri rusiyalı manıs Zaranın Bakıda keçiriləcək "Jara" festivalına qatılıb-qatılmayacağıdır. Kimlərsə Zaranın erməni olduğunu, ölkəmizə gəlməsinin qadağan edilməsinin vacibliyini bildiribdir, festivalın idarə heyəti isə onun erməni yox, kürd olduğunu deyibdir. Bəlkə də o, bir papuasdır. Bir gün Zaranın Azərbaycana buraxılmayacağı, başqa gün buraxılacağı yazıldı. Hazırda ən son məlumat belədir ki, Zara özü gəlməkdən imtina edibdir, lakin festivalın müdiriyyəti deyib, xeyr, yalandır, Zara gələcəkdir, hətta bizim necə gözəl respublika, tolerant millət, etnik təravət, psixoloji lətafət, sosioloji məlahət qurduğumuzu görərək paxıllıqdan zarıyacaqdır. Şair məhz bu məqamda deyibdir:**

***"Durnalar, siz deyin, qan qardaşlarım
Gəlib dərd əlindən zara, deyilmi?
Odlar torpağının ürək parçası
Arazın o tayı, ora deyilmi?"***

Əlbəttə, zara və ora sözlərini qafiyə tutmaq rəhmətlik Süleyman Rüstəmin böyük fitri istedadından xəbər verirdi, indinin özündə də AYB sıralarında xeyli belə dahilər Anar müəllimin qəlyanından çıxan tüstünün fonunda güneyli-quzeyli Azərbaycanımızın dərd-səri ilə süpürləşirlər. Şair uzaqgörənliklə Zara xanımın gəlişi nəticəsində ölkəmizin siyasi səhnəsində yaranacaq təbəddülatları görmüşdür. Əhsən.

Belə istedadlı insanlarımızın bəziləri asudə vaxtlarında avtobus sürürlər, təzəlikcə onlardan biri 202 saylı marşrutda nəşə çəkərək əhalinin böyük marağına səbəb olmuşdur. Polis cinayət işi açaraq sürücünü tutmuşdur. Bu isə təəccüblüdür, çünki 202 saylı avtobus marşrutu bütün Bakıda, hətta deyərdim ki, nəinki Bakıda, Azərbaycanın hər bir yerində, o cümlədən planetimizin başqa dilbər guşələrində adla tanınır, respublikamızın həqiqətlərini dünyaya yayır. Diqqətli oxucularımız bilir, mən özüm dəfələrlə bu marşrutu cızmaqaralarımda tərənnüm etmişəm. 202-nin şoferləri (öz dilimizdə yazaq, sürücü nə sözdür e) arasında bir əli ilə sükanı tutub, o biri əli ilə pulu qaytaran, bu zaman sürəti saatda 120-yə qaldıran, eyni anda tum çırtlayan və təsbeh çevirən azman sənətkarlar vardır. Hətta bir dəfə mənim yadıma gəlir, sürücü maşın gedə-gedə düşüb ayranla tombik dönər aldı, qarşıdakı dayanacaqda maşına mindi, bu məsafəni isə biz sürücüsüz getdik. Allah saxlayanda saxlayır da bə. Bir dəfə sürücü qarpız kəsib hamıya payladı, Biləcəridən "Gənclik"ə çatanacan duş qəbul elədi, saçını fenlədi, dabanını qaşıdı, biz də onun belini kisələdik. Nə olar, hamımızın bir vətəni var. Hamımız müsəlmanıq, əlhəmdüllah. Qardaş qardaşa hansı gündə dayaq olmalıdır?

Özü də çox maraqlıdır ki, 202 saylı marşrutda qapılar, pəncərələr, dam örtüyü, partibireslər ilin hansı fəsli olmasından asılı olmayaraq açıqdır. Nəticədə ulduzları seyr edirsən, yayda sərinləyir, qışda başqa sərnişinlərə sarılıb mehriban olursan, dayanacaqlarda avtobusun istənilən nöqtəsindən sərbəst minib-düşmək olur.

Qaişnik yoldaşlar heç vaxt 202 saylı marşrutun avtobuslarına dəyib-dolaşmırlar *(Elə bu baxımdan da son hadisə təəccübümüzə səbəb olmuşdur)*. Çünki el inanclarına, əfsanə və rəvayətlərə, dastan və bayatılara, holavar və sanamalara görə, 202 saylı marşrut çox böyük məmurlardan birinin qohumuna məxsusdur. Bu isə biz sərnişinləri ikiqat sevindirir. Nəyə lazım hər boş şeyə görə (misal üçün, kimsə açıq qapıdan yola düşüb ölüb) polis avtobusu saxlasın, biz isə işə, dərsə, parkda istirahətə, müasir işıq dirəyinə baxmağa, respublikamızın beynəlxalq arenalarda uğurlarını alqışlamağa gecikək? O üzdən, 202 saylı marşruta bir növ xəyali marşrut da demək olar. Uçan hollandiyalı söhbəti kimi, 202 saylı xəyali marşrut da dünyada məşhurdur. Var, ancaq görünmür. Səni aparır, ancaq hiss eləmirsən. Uçur, ancaq qanadları yoxdur. Bir növ xəyalların avtobusudur.



# "Qalib" Ermənistan məğlub durumda: xarici borclar artır, güzəran ağırlaşır, kütləvi köç səngimir...

## Ermənilərə "məxməri inqilab" da kömək etmir; **Amerika nəşri:** "Qarabağ işğal olunub, ancaq orada yaşayanlar aclıq içindədir"; erməni nəşri isə çağırışçı gənclərə saxta hərbi biletlərin verilməsindən yazdı - daha bir korrupsiya qalmaqalı

**İşğalçı Ermənistan Qarabağdakı "Pirr qələbə"sinin altını çəkməkdə davam edir. "Qalib" Ermənistanın olan-qalan əhalisi illərdir əsl mənada məğlub ölkənin təbəələri kimi ağır güzəran keçirir. Hər halda, "məğlub" Azərbaycanda (hərçənd müharibənin yalnız birinci mərhələsi bitib) insanların sosial-iqtisadi durumu işğalçı ölkədəkindən xeyli yaxşıdır.**

Ermənistandan kütləvi köç, işğalçı orduya çağırışçı problemi "məxməri inqilab"dan sonra da səngimək bilmir, əhalinin güzəranı acınacaqlı olaraq qalır. Çünki ağlı başında olan ermənilər xilas yolunun üsyan-inqilabda deyil, ilk növbədə Dağlıq Qarabağ ixtilafının həllində olduğunu bilirlər - etiraf eləməsələr də.

Bu mənada Ermənistan "1-ci Qarabağ savaşı"nda uduzsaydı, indi dövlət və millət olaraq, xeyli inkişaf eləmiş, qabağa getmişdi. Çünki o zaman Qarabağ problemi, işğal məsələsindən dolayı blokada rejimi olmayacaq, Türkiyə və Azərbaycanla sərhədlər açıq olacaq, Ermənistan bütün iri regional iqtisadi, enerji və kommunikasiya layihələrinin iştirakçısı olub böyük gəlirlər götürəcəkdi.

*****

Bu arada Ermənistanın xarici borcu artaraq 7 milyard dolları ötüb. Bu, ölkənin illik büdcəsindən 2 dəfədən də çoxdur. Rəqəm kifayət qədər kritikdir. Təsadüfi deyil ki, "qərbyönlü" prezident Armen Sərkisyan təzə postuna keçər-keçməz pul dilənmək üçün dərhal Avropa və ABŞ-a çoxgünlük səfər elədi, amma faydası olmadı. Zəngin erməni lobbisi belə, yaxına gəlmədi. Çünki Rusiyanın forpostu Ermənistan inqilabdan sonra da "dibi olmayan vedrə" olaraq qalır, ora böyük sərmayə yatırmağın anlamı yoxdur.

Az sonra eyni məqsədlə "qərbyönlü" baş nazir Nikol Paşinyan Avropa Birliyinin paytaxtına - Brüsselə yollandı. O da Rusiyanın artan qəzəbindən savayı heç nəyə nail olmadı. Paşinyana aydın şəkildə başa saldılar ki, Rusiyanın orbitindən uzaqlaşmağa başlamayınca Ermənistana yardımlar Köçəryan-Sərkisyan dönəmindən o yana keçməyəcək. Rusiyadan uzaqlaşma isə erməni liderləri üçün öz oturduğu budağı baltalamaq, özünəqəsd, suisid kimi bir şeydir.

İndi də Paşinyan sentyabrda ABŞ-a, Nyu-Yorka edəcəyi səfərə ümid bəsləyir. Məlumatlara görə, o, BMT-nin Baş Məclisinin növbəti sessiyasında çıxış edib ABŞ prezidenti Donald Trampla görüşmək istəyir. Məqsəd də Qərbin siyasi himayəsini qazanıb kreditlər qoparmaqdır.

*****

Ancaq bütün bunlar əbəs səylərdir. Əsas səbəbə toxunduq - həll edilməmiş qalan Dağlıq Qarabağ problemi, Rusiya amili. Bu xüsusda ABŞ-ın populyar "Daily Caller" portalında getmiş, Raul Kontrerasın Dağlıq Qarabağ münaqişəsi ilə bağlı məqaləsi ibrətamizdir (Report).

**Yazıda deyilir:** "Ermənistan silahlı qüvvələri Dağlıq Qarabağı hərbi yolla işğal edib. Eyni zamanda həm Ermənistanın özündə, həm də Dağlıq Qarabağ və Azərbaycanın ətraf rayonlarında etnik təmizləmə aparıblar. Bundan sonra onlar orada 25 il ərzində heç kim tərəfindən tanınmayan "Dağlıq Qarabağ Respublikası" yaradıblar. ATƏT-in himayəsi altında 25 ildir yaradılan atəşkəs rejiminə baxmayaraq, ermənilər Rusiya silahları vasitəsilə Azərbaycan ərazilərini atəşə tutmağa davam edirlər".

**Məqalədə bildirilir ki, Ermənistanın işğalı nəticəsində bir milyon azərbaycanlı qaçqın düşüb və onların bir hissəsi üçün Tərtər rayonunun Qapanlı kəndi ərazisində yeni qəsəbə salınıb:** "Ermənilərin daha bir insanlığa sığmayan hərəkəti dağlardan Tərtər rayonuna axan çayların qarşısını kəsmək olub. Bunun qarşılığında isə Dağlıq Qarabağda - təpələrin o biri tərəfindəki ermənilər özlərini dolandıra bilmir və məcbur qalıb Ermənistandan və ya Rusiyadan ərzaq almalı olurlar".

*****

Ermənistanın bir problemi də korrupsiya ilə bağlıdır. Onun səviyyəsi o qədər genişdir ki, az öncə baş nazir Nikol Paşinyan bunu təsəvvürə belə gətirmədiyini deyərək, başını tutmuşdu. Korrupsiyanın kök saldığı sahələrdən biri isə ordu sistemidir.

**"Yeni Müsavat"ın məlumatına görə, "Qaraparak" qəzeti Müdafiə Nazirliyində inqilaba qədərki dövrdə çağırış yaşlı gənclərə rüşvət qarşılığında saxta hərbi biletlər verilərək hərbi xidmətdən yayındırılması məsələsini araşdırmağa başladığını yazıb:** "Bu zaman təkcə vəzifəli şəxslərin övladları deyil, sadə vətəndaşlar da diqqət mərkəzindədir. Bu xüsusda hansı çağırışçının nə səbəbdən, hansı əsasda hərbi xidmətdən azad edildiyi, bunun qanuna uyğun olub-olmadığı və s. yoxlanılır".

Təbii ki, rüşvət, korrupsiya qarşılığında saxta hərbi biletlər Ermənistanda hakimiyyətə münasibətdə hökm sürən ovqatla yanaşı, müharibədən yana yaşanan xofdan, gənclərin boş yerə ölmək istəməməsindən xəbər verir. Təsadüfi deyil ki, saxta biletlər alanlar təkcə vəzifəli şəxslər deyil, həm də sadə ailələrdən çıxan şəxslərdir. Necə deyərlər, özünüifşa davam edir.

Lakin Sərkisyan rejiminin çöküşü ilə vəziyyət yaxşıya dəyişməyəcək. Çünki bu vəziyyəti doğuran əsas səbəblər yerində qalır - Qarabağ problemi, blokada rejimi, qonşularla müharibə vəziyyəti və bütün bunların doğurduğu məntiqi nəticə kimi işsizlik perspektivi, ağır dolanışıq və ölkədən həmişəlik köç edib getmək zərurəti...

❑ **Siyasət şöbəsi, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 160 (7049) 27 iyul 2018

**Ermənistanın baş naziri Nikol Paşinyanın arvadı, jurnalist Anna Akopyan Moskvada səfərdə olub və Dövlət Tretyakov qalereyasına baş çəkib. Virtualaz.org erməni KİV-lərinə istinadən xəbər verir ki, iyulun 24-də Akopyan Tretyakov qalereyasında müxtəlif sferalarda fəaliyyət göstərən bir sıra rusiyalı qadın-xadimlərlə görüşüb.**



# Azərbaycanın tanınmış hüquq müdafiəçisi Paşinyanın arvadına müraciət etdi

## Novella Cəfəroğlu: “Gəl, bizimlə Sülh Platformasında çalış...”

Görüşdə Anna Akopyan iştirakçılara bildirib ki, o, Qarabağa görə “Qadınlar sülh naminə” kampaniyası başladır. Paşinyanın arvadı bu bəyanatı müstəsna olaraq qadın və ana sözü kimi qəbul etməyi xahiş edib. Anna Akopyanın dediyinə görə, onun təşəbbüsünün əsas məqsədi Qarabağ münaqişəsinin dinc nizamlanmasına dəstək olmaqdır. Ermənistanın birinci xanımı bunları deyib: “Əslində mən hesab edirəm ki, bu münaqişənin mənşəyinin əhəmiyyəti yoxdur. Mühüm olanı insan həyatıdır, bu münaqişəyə görə qurban gedən gənc insanlardır”.

**A.Akopyan çıxışında 2016-cı ilin aprelindəki dörd günlük müharibəni xatırladıb. Deyib ki, həmin günlərdə o, KİV rəhbəri kimi həm erməni, həm azərbaycan KİV-lərini izləyirdi, bütün reportajlara baxırdı:** “İnanın mənə, azərbaycanlı əsgərlərə baxanda, onların baxışlarını görəndə başa düşdüm ki, bu uşaqlar bizim əsgərlərdən fərqlənmir. Onların da baxışlarında həmin həyəcan və qorxu ifadəsi yer alırdı. Mən demək istəyirəm ki, heç bir siyasət, heç bir siyasi mənfəət həyata yeni atılmış uşaqların zorakı ölümünə, valideyinlərin ağrısına və yetim uşaqların əzablarına dəyməz”.



Anna Akopyan



Novella Cəfəroğlu

Anna Akopyan əlavə edib ki, hazırda dövlət başçısının arvadı rolunda olduğuna görə susa və öz səsini ucaltmaya bilməz. Anna Akopyan bütün tərəfləri atışmaların dayandırılması üçün mümkün olan hər şeyi etməyə çağırıb, görüş iştirakçılarından xahiş edib ki, təmas xəttinin hər iki tərəfində dayanan gənc insanların həyatını qorumaq naminə onun sülhə yönəlmiş təşəbbüsünə qoşulsunlar.

Bu məqsədlə Anna Akopyan görüş iştirakçılarını Ermənistana və Dağlıq Qarabağa səfər etməyə, oradan səslərini ucaltmağa çağırıb. Habelə o, xahiş edib ki, görüşdə iştirak edən qadınlar öz imkanlarından istifadə edərək bu mühüm mesajı sərhədin digər tərəfinə - Azərbaycana çatdırsınlar. Bildirilir ki, görüş iştirakçıları Anna Akopyanın çıxışına və təşəbbüsünə dəstək veriblər, onun başlatdığı kampaniyaya qoşulacaqlarını və regionda sülh naminə səslərini birləşdirəcəklərini deyiblər.

**Azərbaycanın tanınmış hüquq müdafiəçisi, Dilarə Əliyeva adına Azərbaycan Qadın Hüquqlarını Müdafiə Cəmiyyətinin sədri Novella Cəfəroğlu Ermənistan baş nazirinin həyat yoldaşı Anna Akopyanın sülh çağırışına münasibət bildirib. “Yeni Müsavat”a açıqlamasında Novella Cəfəroğlu qeyd etdi ki, Anna Akopyanın dediklərində və sülh çağırışında səmimi olduğunu arzu edərdi:** “Çox istərdim ki, Anna Akopyan səmimi olsun. Əgər o, həqiqətən səmimidirsə, həqiqətən qan tökülməsini istəmirsə, daha yaxşı. Lakin səmimi olduğunu gərək qarşıdakı fəaliyyətində addımları ilə ortaya qoysun. Oğlunu Azərbaycanın ərazisi olan Qarabağda hərbi xidmətə göndərib bunun ardınca sülh çağırışı ilə çıxış etmək bir-biri ilə ziddiyyət təşkil edən mövqedir. Əgər Anna Akopyan ürəkdən və səmimi olaraq sülh yaradılması işinə girişmək istəyirsə və hansısa sülh kampaniyasına başlayırsa, biz də sülh istəyən insanlar olaraq bu mövqe ilə razıyıq, biz də qoşularıq. Lakin bizim özümüzün də sülh naminə böyük projemiz var. Azərbaycanlı və Ermənistanlı qadınları sülh üçün bir araya gətirən platformadır. Azərbaycanlılardan və ermənilərdən ibarət Vətəndaş Sülhü Platforması xeyli vaxtdır yaradılıb və fəaliyyət göstərir. Anna Akopyan sülh istəyirsə, gərək xeyli müddət əvvəldən həmin Vətəndaş Sülhü Platformasına qoşulaydı. Mən Ermənistan baş nazirinin xanımı Anna Akopyana müraciət edirəm və onu Vətəndaş Sülhü Platformasına qoşulmağa çağırıram. Gəlsin, bizimlə Sülh Platformasında çalışsın. Anna Akopyan bir kampaniya başlatsın ki, Ermənistan Azərbaycanın 7 rayonundan çəkilsin və sonra Dağlıq Qarabağ problemi həll edilsin. Biz də gənclərin müharibədə həlak olmasını, talelərinin yarımçıq qalmasını, anaların gözü yaşlı olmasını istəmirik. Əgər Anna sülh çağırışında səmimidirsə, mən onu dəstəkləyirəm”.

**Gənc Demokratlar İnstitutunun rəhbəri Yeganə Hacıyeva isə bildirdi ki, bu günlərdə oğlunu Qarabağa hərbi xidmətə, vuruşmağa göndərən Ermənistan baş naziri Paşınyanın arvadının bu davranışı ilə Moskvada verdiyi bəyanat uyğun gəlmir:** “Bu, bir daha onu göstərir ki, Anna Akopyan səmimi deyil, siyasi gediş edir. Bu, həm də xalis erməni riyakarlığının növbəti nümunəsidir”.

❑ **Etìbar SEYÌDAĞA,**
**“Yenì Müsavat”**

# Rusiyadan silah almağı azaltmaq təklifi gəldi - səbəb

## Siyasilərin təkliflərinə hərbi ekspertdən rəy

**Son zamanlar bir sıra siyasətçilər və politoloqlar Rusiya silahlarının keyfiyyətinin aşağı olduğunu bildirirlər. Bu səbəbdən də təklif edirlər ki, ölkəmiz də bir sıra dövlətlər kimi Rusiyadan silah alışını minimuma endirsin. Bu, siyasilərin mövqeyidir. Peşəkar hərbçilər bu barədə hansı fikirdədir?**

**İstefada olan polkovnik, hərbi ekspert Üzeyir Cəfərov** “Yeni Müsavat”a bildirdi ki, Azərbaycan silahlı qüvvələrinin silah-sursat təminatında keçmiş SSRİ-nin, sonra isə onun varisi kimi Rusiya Federasiyasının istehsalı olan silahların həcmi onsuz da son zamanlar azalıb: “26 iyun Ordu Günündə Azadlıq meydanında keçirilən hərbi paradda biz demək olar ki, keçmiş sovet və Rusiya istehsalı olan çox cüzi sayda silaha, texnikaya rast gəldik. Yəni bu proses onsuz da gedir. Özü də təkcə Azərbaycanda yox, əksər ölkələrdə gedir. Dünyada və regionda baş verən proseslər fonunda Azərbaycan özünün müdafiəsi və təhlükəsizliyi üçün nə lazımdırsa ayrı-ayrı ölkələrdən alır. Yəni



Üzeyir Cəfərov

təkcə Rusiyadan deyil, digər ölkələrdən kifayət qədər silah alırıq. Bu ölkələrin adları da sirr deyil. İsrail, Pakistan, Türkiyə, Ukrayna, Belarus, Çin və digər dövlətlər. Siyasətçilər və politoloqlar məsələyə həm də bu prizmadan yanaşırlar ki, Rusiyanın son zamanlar sərgilədiyi siyasət fonunda dünyanın bir sıra ölkələri Rusiyadan silah almaqdan imtina edir və ya silah alınmasını azaldırlar. Bu gün heç kim mübahisə edə bilməz ki, Rusiya hərbi-sənaye kompleksi kifayət qədər öz gücünü saxlayır. Ortaya qoyduğu bir sıra silahlar da hələ öz aktuallığını qoruyur. Rusiya çox böyük hərbi-sənaye kompleksinə malik ölkədir. Mən onun tərəfdarıyam ki, Azərbaycan, ümumiyyətlə, Rusiyadan asılılığı bir qədər azaltsın. Düzdür, Rusiya Azərbaycanı öz orbitindən buraxmaq istəmir. Ona görə ki, Azərbaycan nağd pul ödəyərək silah alan ölkədir. Ermənistan isə Rusiyanın boynundan asılmış yükdür. Müxtəlif ölkələr Rusiyadan silah alır. Amma Rusiyada aparılan siyasət onunla dünyanın böyük hissəsini üz-üzə qoyub. Bu vəziyyət isə onu deməyə əsas verir ki, yaxın illərdə Rusiya hərbi-sənaye kompleksi ciddi çətinliklərlə üzləşəcək. Çünki bu gün böyük güclərin tətbiq elədiyi iqtisadi sanksiyalar hərbi sənaye kompleksindən də yan keçməyəcək”.

**Hərbi ekspert qeyd etdi ki, son illər Azərbaycan faiz dərəcəsi ilə götürəndə digər ölkələrdən daha çox silah alıb, nəinki Rusiyadan:** “Elə ölkələr var ki, biz onlardan Rusiya istehsalı olan silah, texnika alırıq. Digər tərəfdən, artıq Azərbaycanın özünün müdafiə sənayesi müxtəlif növ silah, sursat istehsal edir. Bütövlükdə götürəndə hesab edirəm ki, gələcəkdə biz rus istehsalı olan silahlardan nə qədər az istifadə etsək bir o qədər məqsədəuyğundur. Rusiya silahları bəzi göstəricilərinə görə müasir dünyada olan silahların keyfiyyət göstəricilərindən aşağıdır. Hətta ruslar özləri də etiraf edirlər ki, hələ onların texnologiyaları o səviyyədə deyil ki, dünyanın aparıcı silah istehsalçıları olan ölkələrilə ayaqlaşsınlar. Rusiya özü də yaxşı başa düşür ki, hərbi sənaye kompleksinin tam müasir tələblərə cavab verməsi üçün bir sıra işlər görülməlidir. Bu yaxınlarda Rusiya prezidenti yanında keçirilən Təhlükəsizlik Şurasının iclası məhz bu məsələyə həsr olunmuşdu. Çünki artıq Krem doğrudan da narahatdır ki, onun istehsal elədiyi silahlara bir müddət sonra ümumiyyətlə dünyada o qədər tələb olmasın”.

❑ **Etìbar SEYÌDAĞA,**
**“Yenì Müsavat”**



Yaşar Aydəmirov

# General: “Ermənistan o raketi start xəttinə çıxararsa...”

**“Ermənistanda əhalini klanlararası savaşdan yayındırmaq istəyirlər”. “Yeni Müsavat”ın məlumatına görə, bu sözləri axar.az-a açıqlamasında ehtiyatda olan general-leytenant Yaşar Aydəmirov deyib.**

O bildirib ki, Qarabağdakı silahlı erməni separatçılarının rəhbəri Mnatsakanyanın Mingəçevir Su Elektrik Stansiyasını vuracaqlarını bildirməsi bunun nəticəsidir: “Maraqlıdır, onlar Mingəçevir Su Elektrik Stansiyasını nə ilə vurmaq niyyətindədirlər?! Onlar iddia etdikləri raketləri heç yerindən tərpədə, ”start xətti"nə çıxara biləcəklərmi? Onların etdiyi hər şeydən ordumuzun xəbəri olur. Hansısa buraxılışa ordumuz 50 adekvat buraxılışla cavab verəcək. Ordumuz nəinki “yer-yer”, hətta “hava-yer” tipli reaktiv yaylım atəş sistemlərindən istifadə edə bilər".

**General-leytenant vurğulayıb ki, erməni “general” Azərbaycan ordusunun keçirdiyi son parada baxsa yaxşıdır:** “Orada nümayiş etdirilən silahlar haqqında məlumat toplasınlar. Ordumuzun sərəncamında atışı 300 km-ə qədər olan reaktiv yaylım atəş sistemləri var. Bunu unutmasalar, xeyirlərinə olar. Mingəçevirdə qəza baş verdi. Görünür, bu qəzadan separatçı qüvvələr təbliğatda sui-istifadə etmək niyyətinə düşüb. Amma yanlış taktika seçiblər”.

Y.Aydəmirov bildirib ki, erməni separatçılar bu cür populist çıxışlarla öz xalqlarını gərgin vəziyyətdə saxlamaq, siyasi proseslərdən uzaqlaşdırmaq istəyirlər.

YENİ MÜSAVAT
N 160 (7049) 27 iyul 2018

**Məşhur bir filmin belə bir epizodu var. Böyük Vətən müharibəsi illəri əks olunan bu filmdə, gözdən əlil Piri baba nəvəsindən "qara kağız" alır. Nəvəsi son ailə üzvü idi kor qocanın. Kəndin içində ən yüksək yerə daşlara əlini sürtə-sürtə çıxır Piri baba, bərkdən, həm də hönkürə-hönkürə: ''Vəhşilər balalarımızı əlimizdən alırlar, eşidirsinizmi, ay adamlar?!'', ... deyir...**

Jalə Mütəllimova



# "J(Z)ara" diplomatiyası...

## ...və ya Piri babanın "vəhşiləri"...



Bilmirəm o anda Piri baba "vəhşi" sözünü kimə ünvanlamışdı?! Onun "vəhşisi" Hitler, Stalin, Ruzvelt, Çörçil də ola bilərdi. Bəlkə də bu, rejissor uğuru idi. Dünyanı lərzəyə salan böyük ölkələrə, dünyanın necə xarabaya çevrildiyini gözü ilə görməsə də, ruhunda, evində hiss edən kor qocanın dilindən nifrət hayqırırdı...

***

... Qəribədir, çox illər keçib, "vəhşilərsə" qalır. Dünya xəritəsindəki yerləri də, dövləti adları da eynidir. Bircə idarəçilər dəyişib, o da xarakter yox, sima olaraq... Qısa fasilə verək, çünki "Jara"dır. Sözün bütün mənalarında, həm gerçəkdən dəli istidir, həm də eyni adlı festivala az bir zaman qalıb. Əslində müzakirə mövzusu bu festivalın niyə keçirilməsi də deyil. Son günlər gündəm olan başqa məsələ var. 26-29 iyulda keçiriləcək Beynəlxalq Musiqi Festivalında müğənni Zara Mgoyan da səhnədə yer alacaq. Rusiyanın əməkdar artisti olan Zara Paşa qızı Mgoyan 1983-cü ildə Sankt-Peterburqda anadan olub. Əsl adı Zərifədir. Bəzi iddialara görə, onun bir tərəfi yezidi kürdü, bir tərəfi ermənidir. Müğənninin ailəsi əslən Ermənistanın Gümrü bölgəsindəndir. Lakin son dəqiqləşdirmələrdə isə iddia olunur ki, onun erməni qarışığı yoxdur, etnik kökəncə yezidi kürdüdür.

İnsanlarımız yezidi kürd əsilli bu müğənninin Azərbaycanın baş kəndinə gəlişinə, oxuyub konsert verməsinə bu dərəcə aqressiv reaksiya verir. Bu aqressivliyə xeyli ictimai fəalın sərt mövqeyi də dəstək olur desək, bəlkə də yanılmarıq. Prosesə qoşulmaq üçün təklif alanlardan biri də mən idim. Sosial şəbəkədəki şəxsi məktublar bölümündə saygım olan bir dost təxminən bu mövzuda müraciət yolladı: **''Bir neçə həmkarı da cəlb edin, tez bəyanat hazırlayın, biz də yayaq. Erməni Zaranın Bakıya gəlməsinə etiraz etmək lazımdır. Özü də ən sərt formada''**. Burada bir "STOP!" demək zorundayam, növbəti epizod üçün.

***

Bir tərəfi yezidi kürdü, o biri tərəfi erməni olan müğənni qız Bakıya gətirilir. Konserti təşkil olunur, özü də azərbaycanlı bir milyaderin - Araz Ağalarovun oğlu, Azərbaycanın xalq artisti Emin Ağalarovun baş təşkilatçılığı ilə. Sizi bilmirəm, mən bu kimi faktlara sıradan, təsadüf, düşünülməmiş addım demirəm. O üzdən şəxsi məktub bölümünə müraciət edən dostun şəxsinə hörmət və sayğıyla susdum. Gözlədim ki, görək bu "Jara"nın və Zaranın sonu noolacaq?!

Kimi dedi Emin özü, ümumiyyətlə, Qarabağ nədir bilmir...

Sonra söylədilər indi də erməniləri, yezidi kürdlərlə bizə sırıyırlar...

Nə isə, düşündüm məqamdır. Söyülsən də, təhqir olunsan da demək məqamıdır.

Öncə onu deyim ki, bundan əvvəl də Bakıya ermənilər gəlib. Evlərini, doğulduqları şəhərləri gəziblər, Bakıda işə giriblər, müsahibələr veriblər, gözümüzə batacaq qədər efirdə olublar. Heç birinə bu qədər reaksiya olmayıb. Heç biri haqda bu qədər kampaniya aparılmayıb.

Bu məqamda bir neçə il öncə yaşadığım bir hekayəni anladım...

... Moskvada işgüzar səfərdə idim. Silsilə tədbir və sərgilərdə iştirak etməli idim. Özümü səliqəyə salmaq üçün qaldığım evin yaxınlığındakı qadın gözəllik salonuna getdim. Boş olan ilk ustanı göstərdi mənə administrator. Əyləşdim. Usta ilə söhbətdə azərbaycanlı olduğumu bildi. Bakıda yaşayıram deyəndə isə gördüm təxminən mənimlə həmyaş olan qadın xısın-xısın ağlayır. Maraqla baxdığımı görüb, ''Bakılıyam, anam Bakı deyə-deyə öldü, atam biz köçüb gələndən sonra buradakı qaydalara alışa bilmədi, intihar elədi. Qardaşım itkindir. İki dəfə istədim durum sizi qucaqlayım, qorxdum ki, məni rədd edərsiniz, erməniyəm''.

Dik atıldım, ilan vuran kimi... Dırnaq manikürü üçün masaya qoyulan köpüklü su yerə aşdı, özümdən asılı olmadan dediyini eləmişdim, ən sərt şəkildə rədd etmişdim erməni qadını. O an elə bildim dünyanın ən sonuncu insanıyam. Salonda gözümlə yer gəzdim əlimi yuyub, dezinfeksiya eləmək üçün, eyni zamanda da düşündüm ki, əlimi vuracağım hər şeyə, hər yerə bu qadının da əli toxunub axı. Mənim sistemsiz hərəkətlərimdən salonda hamı donub qalmışdı, erməni qızsa yarı rus, yarı azərbaycan dilində hönkürürdü: ''Mənim günahım yox idi! Anamın günahı yox idi! Zorla Dağlıq Qarabağa aparılan, hələ də ölüb - qaldığından xəbər tuta bilmədiyim qardaşımın günahı yox idi! Yox idi! Yox idi!...''

Salondan necə çıxdığım, necə taksiyə oturduğum ağlımda deyil indi də. Bir o yadımdadır ki, Dağlıq Qarabağ münaqişəsində erməni və azərbaycanlılardan çox marağı olan Rusiyanın paytaxtı Moskvada özümü ölkəmi satmış kimi hiss edirdim. Diqqətim əllərimdə idi. Mən bir ermənininin toxunduğu bu əllərlə məktəbim silah anbarı olanda əsgərimə silah daşımışdım. Sonra itkin düşən məktəb yoldaşım Cabirdən yazı yazmışdım. Hələ inistitut dönəmində, hərbi tibb bacısı diplomu üçün təcrübə keçdiyim xəstəxanada əlimi bir əsgərin yarasına basıb, saxla, qorxma, boşdasan, öləcək, iyrənmə qandan, tapşırığını almışdım. İndiyəcən o əsgərin qanının qoxusu ağlımdadır. Burnumda yox, ağlımda. Bu çox dəhşətli duyğudur. Bir dəhşətli qoxunun insanın ağlında iz salıb qalması. Bir də atamın xatirə üzüyünü orduma bağışlamışdım mən bu əllərlə. Nifrətimlə, təkcə ermənilərə yox, həm də özümə olan nifrətimlə uzun müddət başa çıxa bilmədim. Mən elimə yox, elimə xəyanət eləmiş kimi bilirdim özümü o qadının toxunuşundan sonra. Çox uzun illər belə idi. Bəlkə bu "Jara"ya qədər. Bəlkə artıq daha çox 90-ların cocuqları bu adsız müharibədə ölür deyə, bəlkə də mənim oğlum 2000-lərin cocuğudur və 90-lardan sonra, 2000-lər gəlir deyə... Mənim oğluma, sənin oğluna, onun, o birinin oğluna da bir şey qalmayıb deyə bəlkə də...

***

... Biz silahlanaq! Savaşa hazırlanaq və torpaqlarımız uğrunda da savaşaq. Biz bizə edilənləri unutmayaq! Lakin bir şeyi də unutmayaq. Dünyanın bütün tribunalarından dövlət olaraq deyirik ki, Dağlıq Qarabağ bizimdir və biz oradakı erməni əhali də daxil, bütün vətəndaşlarımızı torpağımızla bərabər bağrımıza basmağa hazırıq. Ermənilərsə hər yerdə iddia edirlər ki, Azərbaycanın 6 rayonunu Dağlıq Qarabağın erməni əhalisini TƏHLÜKƏDƏN qorumaq üçün işğal ediblər. Ermənilər hər yerdə iddia edirlər ki, Dağlıq Qarabağ Azərbaycana qaytarılsa, Azərbaycan oradakı erməniləri qıracaq və s.

İndi bir test qarşısındayıq. Biz erməni olması mübahisəli olan bir qadını Bakı səhnəsində görməyi, onun musiqisinə dözməyi bacarırıqmı, bacarmırıqmı? Biz Dağlıq Qarabağdakı erməniləri, işğaldakı torpaqlarımız daxil, öz içimizə qəbul edə bilərikmi, bilmərikmi...

Məsələnin tərsini düşünək - fərz edək ki, hansısa Türkiyə müğənnisi, ya da lap elə azərbaycanlı tanınmış müğənnilərdən biri gedib İrəvanda konsertdə oxuyacaq. Buna biz necə baxarıq...

Yəni bu məsələdən daha çox ermənilər narahat olmalı, daha çox onlar üsyan püskürməli, Zaranı xain elan etməlidirlər. Biz bir az dözümlü olaq. Bakıya gəlib-gedən erməni yazıçılara, jurnalistlərə, ictimai fəallara göstərdiyimiz qədər dözümlü olaq. Bu testi keçək. Biz milli-irqi fərqlərə görə düşmən kəsilən bir toplum deyilik. Biz ermənilər kimi heç deyilik...

Biz Azərbaycanın torpaqlarının işğalında iştirakı olmayan, xalqımıza qarşı cinayət törətməyən, dinc həyat sürən hər hansı erməni əsilli birisinin ölkəmizə gəlməsinə, gəlib burada Azərbaycan haqqında xoş sözlər deməsinə niyə imkan verməyək ki? Biz dünyaya göstərməliyik ki, heç bir xalqı özümüzə düşmən bilmirik - biz ermənilər kimi xəstə toplum deyilik. Qoy, gəlsin, görsün, onunla bərabər onun fanatları, onu sevənlər də bizi görsün, geniş ürəkliliyimizi bilsin, anlasın. Fərqi bütün dünya görsün...

İndi bizi bizdən çox kənardan izləyirlər, dinləyir və proqnozlaşdırırlar. Onların içində Piri babanın "vəhşiləri" də var...

**O proqnozları boşa çıxardaq.**

# Pula görə nənəsini öldürən gəncin məhkəməsi başladı

**Nənəsini öldürən 18 yaşlı şəxs hakim qarşısına çıxarılıb. Musavat.com xəbər verir ki, Bakı Ağır Cinayətlər Məhkəməsində qətl törətməkdə təqsirləndirilən 2000-ci il təvəllüdlü Nihat Muradovun cinayət işi üzrə məhkəmə iclası başlayıb.**



Hakim Əhməd Quliyevin sədrliyi ilə məhkəmənin hazırlıq iclası keçirilib. Təqsirləndirilən şəxsin anket məlumatları dəqiqləşdirilib. Məhkəmənin baxış iclası avqustun 9-na təyin edilib.

Daxili İşlər Nazirliyinin yaydığı məlumata görə, bu il yanvarın 8-də Abşeron rayonunun Saray qəsəbəsində yaşayan Nihat Muradovun evində Qax rayon sakini Xədicəbəyim Seyidəliyevanın üzərində zorakılıq əlamətləri olan meyiti tapılıb. Evdən qızıl əşyaların oğurlanması da müəyyənləşib. Abşeron Rayon Polis İdarəsi və rayon prokurorluğu əməkdaşlarının keçirdikləri istintaq və əməliyyat-axtarış tədbirləri nəticəsində qətli törətməkdə şübhəli bilinən Nihat Muradov saxlanılaraq istintaqa təhvil verilib.

Araşdırmalarla hadisənin tamah məqsədilə törədilməsi müəyyən edilib və ondan qızıl əşyalar maddi sübut kimi götürülüb. N.Muradov öldürülən qadının nəvəsidir.

❑ İlkin MURADOV,
Musavat.com

YENİ MÜSAVAT
N 160 (7049) 27 iyul 2018

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**

**Ermənistanın baş naziri Nikol Paşinyan hökumət başına gəldiyi üçüncü ayda artıq neçənci dəfədir ki, Qarabağla bağlı ziddiyyətli mövqelər nümayiş etdirir. Parlament seçkisindən bir gün sonra işğal altındakı Qarabağ torpaqlarına səfər etməklə beynəlxalq hüququ pozan və faktiki olaraq danışıqların pozulmasına yönəlik addım atan erməni baş nazir sonrakı dönəmlərdə də konstruktiv görünməyə mənasız cəhdlər etsə də, reallıq başqa şey deyir.**






# Qarabağla bağlı "nala-mıxa vuran" Paşinyan: İrəvan prosesi niyə uzadır?

## Ermənistanın baş naziri danışıqlarda iştiraka cəsarət etmir; **politoloq:** "Onun İlham Əliyevə deyəcəyi sözü yoxdur, tutuquşu kimi Sərkisyanın dediklərini təkrarlayacaq..."

Nikol Paşinyan bu günlərdə növbəti dəfə Dağlıq Qarabağ separatçılarının danışıqlarda tərəf kimi iştirakının "zəruriliyindən" bəhs edib. Hökumət başına gəldikdən bir gün sonra eyni məzmunlu bəyanat verən Paşinyan əslində mövqeyinin yanlış olduğunu bu müddətdə dərk etməli idi. Hətta sabiq prezident Levon Ter-Petrosyan da ona məsləhət görmüşdü ki, Qarabağ məsələsində normal mövqedən çıxış etsin. Bu günlərdə baş nazir eks-prezidentlə görüşsə də, yenə də anormal baxışlarını dəyişmədi. Belə ki, danışıqların qəbul olunmuş formatına zidd olaraq Dağlıq Qarabağın prosesdə "tərəf" kimi iştirakından dəm vurdu. Ermənistanın sabiq rəhbərliyinin aqressiv mövqelərini öz davranışları ilə geridə qoymağa cəhdlər edən N.Paşinyanın bu cəsarəti haradan alması da maraqlıdır. Amma onun son açıqlamalarından belə çıxır ki, Paşinyan hətta Azərbaycan rəhbərliyi ilə təmaslardan da yayınır. Belə ki, XİN rəhbərliyinin Brüssel görüşündən sonra danışıqların daha yüksək səviyyədə davamı istiqamətində cəhdlər göstərilsə də, İrəvan təxribatçı addımları ilə prosesi pozmağa maraq göstərir. Xüsusilə də Mingəçevir SES-in hədəfə alınacağı ilə bağlı avantürist bəyanat, həmçinin Azərbaycanın mövqelərinin atəşə tutulması nəticəsində əsgərimizin həlak olması və erməni diversantların son təxribatı, bir erməni kəşfiyyatçısının ələ keçirilməsi kimi faktlar Ermənistanın vəziyyəti gərginləşdirməyə daha maraqlı olduğunu nümayiş etdirir. Sanki Paşinyan, sadəcə, vaxtı uzatmaq, danışıqlar adı ilə vaxt qazanıb hakimiyyətini möhkəmləndirməkdə maraqlıdır, nəinki Qarabağ məsələsində irəliyə doğru addım atmaqda.

"İlham Əliyevlə Qarabağ münaqişəsini nizamlamaq üçün üzbəüz görüşməyə hazıram". Modern.az xəbər verir ki, bu barədə Paşinyan "Al Jazeera"ya müsahibəsində deyib. İyulun 28-də yayımlanacaq müsahibədə Paşinyan Türkiyə ilə münasibətlərə də toxunub. Baş nazir Türkiyə ilə heç bir şərt irəli sürmədən diplomatik münasibətləri bərpa etməyə və sərhədləri açmağa hazır olduqlarını xatırladıb. Ancaq Türkiyənin əsas şərtlərindən birinin Qarabağın azadlığı ilə bağlı olduğunu yenə də "unudub".

Ermənistanın baş naziri İrəvanda "Exo Moskva" radiosunun baş redaktoru Aleksey Venediktovla görüşüb və ona geniş müsahibə verib. Virtualaz.org xəbər verir ki, müsahibədə Nikol Paşinyan Azərbaycan prezidenti İlham Əliyevlə tanışlığına da toxunub. Bildirib ki, Moskvada Rusiya prezidenti Vladimir Putin onları tanış edib, amma təəssüf ki, bu tanışlıq "effektli olmayıb". Venediktov qeyd edib ki, Putin əvvəllər bir neçə dəfə Azərbaycan prezidenti və Ermənistan rəhbərliyi arasında görüş təşkil edib. "Gələcəkdə də hansısa belə format mümkündürmü?" - o soruşub.

"Mən futbol üzrə Dünya Çempionatının açılışı üçün Moskvada olanda Vladimir Vladimiroviç Azərbaycan prezidenti ilə bizi tanış etdi. Biz onunla tanış olduq. Sadəcə olaraq, problem ondadır ki, təəssüflər olsun, bu tanışlıq o qədər də effektli olmadı" - Paşinyan cavab verib. Paşinyanın sözlərinə görə, İlham Əliyev də bu günlərdə NATO sammitində iştirak edib, amma onlar bu sammitdə heç bir-birləri ilə salamlaşmayıblar da. "... Sadəcə olaraq... belə alındı da" - Ermənistanın baş naziri deyib.

**Venediktovun erməni liderin İlham Əliyevə zəng vura biləcəyi barədə qeydinə Paşinyan belə reaksiya verib:** "Bilirsinizmi, bəli, bu yaxşı ideyadır, amma məndə onun telefon nömrəsi yoxdur". Bundan sonra Venediktov vəd edib ki, Əliyevlə görüşəndə ona belə sual verəcək: "Azərbaycan kompromisə hazırdırmı?" və Paşinyan üçün ondan telefon nömrəsi xahiş edəcək.

Göründüyü kimi, Paşinyan söz oynatmağa uğursuz cəhd edir. Əgər onda cəsarət və iradə olsa, bəhanələr gətirmədən Azərbaycan prezidenti ilə ciddi müzakirələrə hazır olduğunu bəyan edərdi, daha avantürist açıqlamaları ilə diqqət mərkəzində qalmağa çalışmazdı. Paşinyan qorxduğunu da etiraf edib. "Etimadı doğrultmayacağımdan qorxuram". Avropa.info xəbər verir ki, bunu Ermənistanın baş naziri Nikol Paşinyan "Exo Moskva"nın baş redaktoru Aleksey Venediktovun "Monomaxın papağı ağır deyilmi" sualını cavablandırarkən deyib. "Mən bu yükü öz istəyimlə məcburi olaraq götürdüm və daşıyıram. Qorxu bunda deyil, qorxu ondadır ki, ümidləri doğrultmayasan və məyus edəsən"-Nikol Paşinyan bildirib. Görünən budur ki, Paşinyanı kreslo daha çox maraqlandırdığı üçün Qarabağ məsələsində səhv etməkdən çəkinir.

Şübhə yoxdur ki, Paşinyan Rusiyadan alınan 200 milyonluq silaha, həmçinin Kremldən aldığı təlimatlara uyğun şəkildə aqressiv tonda danışır. Bir müddət öncə Rusiyanın Ermənistandakı hərbçiləri Ermənistan əhalisinə şok yaşatsa da, İrəvan Kremlin iradəsinə qarşı çıxmağa cəsarət etmədi. Hətta ilk saatlarda səsləndirilən sərt bəyanatlar da təkzib olundu.

**Bu arada Rusiya Liberal Demokrat Partiyasının sədri Vladimir Jirinovski də Rossiya-1 televiziyasında çıxışı zamanı deyib ki, Rusiyanın Gümrü və İrəvanda bazası olmasaydı, Qarabağda artıq ermənilər yox idi (axar.az).** "Bizim ordumuz Ermənistanda olduğuna görə ermənilər Qarabağda rahat yaşayırlar. Rusiya postsovet məkanındakı konfliktlərdə keçmiş SSRİ-nin bütün əhalisini qorumaq və xilas etmək üçün iştirak edir. Dnestryanıda 1992-ci ildə insanları kəsməyə, rus milislərini qaralamağa, qızları zorlamağa başladılar. Soyqırım, vətəndaş müharibəsi gedirdi. Rus ordusu bunun qarşısını aldı. Əgər Donbasda da ruslar öldürüləsəydi, bu gün Ukrayna hadisələri olmazdı. Biz osetin və abxazları da xilas etmişik. Biz keçmiş SSRİ-nin bütün əhalisini müdafiə edəcəyik. Biz Kanada və Afrikaya girməyəcəyik, amma SSRİ və Rusiya imperiyasının tərkibində yer alan hər kəsi milliyyətindən asılı olmayaraq, müdafiə edəcəyik", - deyə o bildirib.

O da maraqlıdır ki, Ermənistanın baş naziri Nikol Paşinyanın arvadı, jurnalist Anna Akopyan Moskvada bildirib ki, o, Qarabağa görə "Qadınlar sülh naminə" kampaniyası başladır. Paşinyan radikal bəyanatlar verdiyi halda, onun arvadının "sülh carçısı" kimi çıxış etməsi də diqqət çəkir. Belə görünür ki, paşinyanlar ailəsinin özündə belə Qarabağla bağlı yekdil rəy yoxdur, nəinki Ermənistan cəmiyyətində.

**"Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri, politoloq Elxan Şahinoğlu isə hesab edir ki, Nikol Paşinyan üçün Qarabağ münaqişəsinin həlli prioritet deyil:** "O, hazırda erkən parlament seçkisində necə qələbə çalacağı haqqında düşünür. Çünki Nikol Paşinyan hazırda azlığın baş naziridir. O, gələn il keçirilməsi planlaşdırılan parlament seçkisində qələbə çalıb əlini gücləndirmək istəyir. Buna qədər isə o, Qarabağ münaqişəsinin həlli ilə bağlı danışıqlara maraq göstərməyəcək. Təsadüfi deyil ki, Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov dedi ki, Ermənistan tərəfi yüksək səviyyəli görüşün keçirilməsi üçün vaxt istəyib. Paşinyan bu yolla danışıqları parlament seçkilərinə qədər uzatmaq istəyir. Çünki onun İlham Əliyevlə görüşdə deyəcəyi söz yoxdur, tutuquşu kimi Serj Sərkisyanın vaxtilə dediklərini təkrarlayacaq".

**Politoloqa görə, Paşinyan onu da anlayır ki, nəticəsiz danışıqlar cəbhə bölgəsində gərginliyi artıra bilər:** "O isə bunun qarşısını almaq istəyir. Ancaq müharibədən çəkinən Paşinyan gərək nazirlərinin və Qarabağdakı separatçıların ağızlarından çıxanlara nəzarət etsin. Çünki "Mingəçeviri vura bilərik" hədələrinin daim təkrarlanması sülhü yox, müharibəni yaxınlaşdırır. Mingəçevir Su Elektrik Stansiyasına hər hansı raket düşsə, bu, biz azərbaycanlılar üçün son nəfəsə qədər müharibənin başlanğıcı olacaq".

Ermənistanın baş naziri Nikol Paşinyan Avrasiya İqtisadi İttifaqına üzv ölkələrinin Sankt-Peterburqda keçiriləcək iclasında iştirak etmək üçün 26 iyulda Rusiyaya yola düşüb (publika.az). Bu barədə Paşinyan özünün facebook səhifəsində yazıb. Paşinyan əvvəlcə iclasa öz müavinini göndərmək istəyirmiş. Lakin Ermənistan mediasının yazdığına görə, Kreml Paşinyandan özünün gəlməsini tələb edib. Bu məsələ hətta Putinlə Paşinyanın telefon danışığında da müzakirə edib. Ermənistanın baş nazirinin iclasa qatılması və Moskvaya ünvanlanmış "Biz Avrasiya İqtisadi ittifaqının işini iflic etməyə hazırlaşmırıq" sözləri erməni ictimaiyyətində narazılıqla qarşılanıb. Xüsusilə Panik kəndində rus hərbiçiləri ilə baş verən qalmaqaldan sonra ermənilər Paşinyan hökumətinin Rusiyadan üz çevirmək istiqamətində hərəkət edəcəyini düşünürdü.

Budur, Nikol dediklərinin tam əksinə olaraq Putinin hüzuruna tələsir. Siyasətdə bu gedişlər normal qarşılana bilər, lakin kütlə belə geri addımları birmənalı qarşılamır. Erməni şərhçi Tevos Arşakyan yazıb ki, Paşinyanın izahatı cəmiyyəti təmin etmədi və anlaşılmaz suallar doğurur. "Ermənistanın xarici siyasətində son addımları təhlil edəndə, xüsusilə NATO sammitində iştirak, Avropa İttifaqının liderləri ilə görüş və s. proseslər yeni hökumətin Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı və Avrasiya İqtisadi İttifaqı kimi rus birliklərindən tədricən uzaqlaşdığı görüntüsü ortaya çıxır. Biz hamımız əla anlayırıq ki, rus ittifaqları Ermənistana heç bir iqtisadi divident gətirmədi, hətta idxal-ixrac disbalansını düzəltmədi. Və birdən Paşinyan rus ittifaqının iclasında iştirak etmək üçün yola çıxır. Doğrudanmı o, geri çəkilir, yaxud da Sankt-Peterburqa getməyə məcbur edilib? Paşinyan bu gün iclasa getməməli və Rusiyanın son vaxtlar işə saldığı şantajları qəbul etmədiyini göstərməli idi. Lakin Paşinyan milli maraqların zərərinə olsa da, "Tayqa ittifaqı"na yaxşı niyyət göstərmək üçün Sankt-Peterburqa getdi", - deyə erməni şərhçi qeyd edib.

Beləliklə, Paşinyan Brüssel səfəri və NATO-nun Gürcüstanda keçiriləcək hərbi təlimlərində iştirakını əsaslandırmaq üçün Putinlə görüşməyə qərar verib. Görünür, bir müddət öncə Putinlə telefon danışığında anlaşma əldə olunmayıb və Paşinyan günahını yumaq üçün Rusiyaya özü getməli olub...

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Elşad PAŞASOY

YENİ MÜSAVAT
N 160 (7049) 27 iyul 2018



# Ankara və Bakının İrana qarşı sanksiyalar məsələsində seçimi nə olacaq?

## Toğrul İsmayıl: "Qərbin sanksiyaları Azərbaycanın faydasına ola bilər, çünki…"

**Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan deyib ki, onun ölkəsi ABŞ-a görə İranla münasibətləri pozmaq və anti-İran sanksiyalarına qoşulmaq niyyətində deyil. O qeyd edib ki, Türkiyə İrana qarşı sanksiyaların yolverilməz olduğunu hesab edir: "İran bizim üçün mühüm strateji tərəfdaşlardan biridir".**

R.T.Ərdoğan həmçinin bildirib ki, Türkiyə və İran arasında münasibətlər yüksək səviyyədədir və gələcəkdə də belə olacaq. Prezident qeyd edib ki, Türkiyənin ABŞ-la yanaşı başqa ortaqları vardır. Onlarla əlaqələri kəsmək ölkələr arasındakı müstəqillik anlayışına ziddir. Eyni zamanda o, əlavə edib ki, Türkiyə İrandan qaz alır və sanksiyalara qoşulacağı təqdirdə, Türkiyənin hansı mənbədən qaz alacağı məlum deyil. **Sitat:** "Biz həmin ölkələrdən elə məhsullar alırıq ki... Onları almasaq, ölkəmizi kim isidəcək? Biz bunu hörmətli Obamanın dövründə də Amerikaya dedik, indi də eynisini deyirik".

Qeyd edək ki, ABŞ hökuməti may ayında İranla imzalanmış nüvə müqaviləsindən çıxıb və Tehrana qarşı sanksiyaları yenidən bərpa edəcəyini bəyan edib. Eyni zamanda Vaşinqton noyabra qədər İrana qarşı keçmiş sanksiyaları bərpa edəcəyini, noyabrdan etibarən isə yeni sanksiyalar, o cümlədən İranın neft sektoruna qarşı sanksiyalar tətbiq etməyə başlayacaq. Vaşinqton İranın neft ixracatını minimuma endirmək, bununla da onu iqtisadi cəhətdən zəiflətməyə çalışır.

İndi isə ABŞ administrasiyası İrandan neft alan ölkələrə təzyiq edərək neft almaqdan imtina etdirməyə çalışır. Təbii ki, İrandan ən çox neft və qaz alan ölkələrdən biri də Türkiyədir. Türkiyə və İran həmsərhəd ölkədir, iki ölkə arasında böyük həcmdə ticarət əlaqələri var. Ən əsası, Türkiyə qaz istehlakının 17 faizə qədərini İran qazı hesabına təmin edir. İlk sırada isə Rusiya gəlir. Ümumilikdə Türkiyənin illik qaz ehtiyacının 52 faizini Rusiya, 17 faizə qədərini İran, 15 faizə yaxınını isə Azərbaycan qazı hesabına təmin edir. Ankara il ərzində İrandan 7 milyard kubmetrə qədər qaz alır.



Onu da qeyd edək ki, bundan əvvəlki dönəmdə, yəni 2015-ci il anlaşmasına qədər İrana qarşı Qərbin sanksiyaları zamanı Türkiyə, Azərbaycan kimi İranla həmsərhəd ölkələri müəyyən qədər embarqolardan kənarda qalmışdı və İranla ticarət əlaqələrini davam etdirirdilər. Daha sonra üzə çıxan məlumatlardan o da bəlli oldu ki, İranın gizli neft və qaz ticarətində Türkiyənin payı yüksək olub. Hətta bununla bağlı İran əsilli Türkiyə vətəndaşı Rza Zərrab və eləcə də Türkiyənin "Halkbank" dövlət bankının sədr müavini Hakan Atilla ABŞ-da həbs olunaraq Amerika sanksiyalarını pozmaqda ittiham olunaraq məhkəmə qarşısına çıxarılmışdı.

**Politoloq Toğrul İsmayıl deyir ki, Türkiyə maksimum dərəcədə İrana qarşı ABŞ sanksiyalarına qoşulmamaq üçün müqavimət göstərəcək, daha doğrusu, göstərməyə çalışacaq:** "Çünki daha əvvəlki sanksiyalarda olduğu kimi, indi də Türkiyənin dövlət maraqlarından söhbət gedir. Bu səbəbdən indidən Ankaranın hansı mövqeyi ortaya qoyacağını, nə edəcəyini demək çətin olsa da, rəsmi şəxslərin açıqlamalarından belə hiss olunur ki, Ankara İran məsələsində ehtiyatlı mövqe tutmaq fikrindədir".

**T.İsmayıl deyir ki, Türkiyənin İranla olan geopolitik maraqları, neft-qaz məsələsində İranla olan bağlılığı, ölkənin iqtisadi maraqları baxımından bu cür mövzuları daha dərindən dəyərləndirməsini şərtləndirir:** "Digər tərəfdən, unutmaq lazım deyil ki, Türkiyə bir dövlət olaraq İrana qarşı həyata keçiriləcək əməliyyat zamanı ən çox zərər görəcək ölkə ola bilər. Təbii ki, bütün bunlar Türkiyənin daha ehtiyatlı və həssas davranmasına səbəb olacaq. Ancaq Türkiyənin təkbaşına bu sanksiyalara qarşı dayanması çox çətindir. Buna görə də bununla bağlı ciddi hesablamalara ehtiyac var".

Toğrul İsmayıl düşünür ki, Azərbaycan iqtisadiyyatı İrandan asılı deyil: "Ancaq İrana qarşı təzyiqlər və müharibə Azərbaycan üçün də risk doğurur. Sadəcə, meyvə-tərəvəz və bu kimi bəzi məhsulları çıxmaq şərtilə İrandan Azərbaycana böyük ixracat yoxdur. Əksinə, Qərbin İrana qarşı sanksiyaları regional alternativ olaraq Azərbaycanın faydasına ola bilər. Digər tərəfdən, Azərbaycan-İran əlaqələri də birmənalı deyil. Bu mənada Azərbaycan Türkiyə ilə müqayisədə daha rahatdır. Yəni Azərbaycan Avropa Birliyi və BMT-nin İran məsələsi ilə bağlı verdiyi qərarları rahatlıqla icra edə bilər. Ancaq onu da unutmaq lazım deyil ki, Azərbaycan İrana qarşı həyata keçiriləcək mümkün hərbi əməliyyatlar zamanı ən çox zərər görən ölkələrdən biri ola bilər. Bu, qaçqınlar, humanitar fəlakət, müharibənin yaratdığı fəlakətlərlə bağlı ola bilər. Bu məsələlər də mütləq nəzərə alınmalıdır".

❑ **Kənan RÖVŞƏNOĞLU,**
**"Yeni Müsavat"**

# Ərdoğandan ABŞ-a şifrəli jest - Ağ Evin cavabı nə olacaq?

## "FETÖ işi"nə görə tutulan amerikalı rahibin ev dustaqlığına buraxılması Türkiyə iqtisadiyyatına müsbət təsir edib, qərarın əsl səbəbi açıqlanmır...

**Türkiyədə 15 iyul qiyamına dəstək verməkdə ittiham olunaraq həbs edilən amerikalı rahib Endryu Kreyq Branson ev dustaqlığına buraxılıb. Türkiyə mətbuatının yazdığına görə, rahibə Türkiyə hüdudlarından kənara çıxmaq qadağan edilib.**



Amerikalı rahib 20 ildən çoxdur Türkiyənin İzmir şəhərində yaşayır və dini fəaliyyətlə məşğul idi. Ancaq Türkiyə hüquq-mühafizə orqanları Bransonu 15 iyul qiyamına dəstək verməkdə və PKK-ya yardım etməkdə ittiham edərək həbsə salmışdı.

Rahibin həbsi Amerikada ciddi narahatlıq doğurub. Məsələ hətta ABŞ Konqresində müzakirə olunub. Prezident Donald Tramp rahibin sərbəst buraxılması üçün Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğana çağırış edib. Tramp Bransonun həbs müddətinin uzadılması qərarını "utancverici" adlandıraraq, onu azad etməyə çağırmışdı. Konqresdə isə buna görə Türkiyəyə qarşı sanksiyaların qəbul olunması çağırışları səsləndirilib.

Ancaq iki gün əvvəl gözlənilmədən Türkiyə məhkəməsi amerikalı rahib barədə ev dustaqlığı qərarı verib. Maraqlıdır ki, bu qərar ABŞ Konqresində gələn ilin müdafiə xərcləri ilə bağlı qanun layihəsinin qəbul olunması və bu zaman "F-35" qırıcılarının Türkiyəyə satışının müvəqqəti olaraq dondurulması haqda qanunun qəbulu ilə eyni günə təsadüf edib. Ancaq hələlik bu qərarın səbəbi məlum deyil.

ABŞ dövlət katibi Mayk Pompeo rahib Bransonun həbsdən buraxılıb ev dustağı edilməsi barədə qərarı məmnuniyyətlə qarşıladıqlarını, ancaq yetərli görmədiklərini deyib. Pompeo rahibə qarşı ittihamların sübuta yetirilmədiyini də bildirib. Sitat: "Rahib Bransonun ev dustaqlığına buraxılmasını məmnunluqla qarşıladıq. Ancaq bu, yetərli deyil. Cənab Bransonu ittiham etmək üçün yetərli dəlil yoxdur. Türkiyə rəsmilərini Bransonun məhkəmə işini ədalətli şəkildə həll etməyə çağırırıq".

Qeyd edək ki, Türkiyədə bəzi media orqanları amerikalı rahibin hazırda ABŞ-da yaşayan və FETÖ təşkilatının lideri hesab olunan Fətullah Gülənlə dəyişdiriləcəyini iddia edirdi. Hətta "ver vaizi (F.Gülən), al papazı" sözü də buna işarə idi. Vaşinqtonun israrlarına rəğmən, Türkiyə tərəfinin rahibi həbsdə saxlamasını da bununla izah edirdilər. Ancaq indi gözlənilmədən Ankara jest etdi.

Qeyd edək ki, bundan öncə də bir sıra ekspertlər xəbərdarlıq edirdilər ki, rahibin həbsdə saxlanılması Türkiyə-ABŞ münasibətlərini zədələyə, Ankara üçün ciddi nəticələr doğura bilər. Təqaüddə olan keçmiş səfir Faruk Loğoğlu Türkiyə mediasına verdiyi müsahibədə rahibin azad edilməsini məhz bununla izah edib. Loğoğlu deyib ki, Bransonun azad edilməsi Vaşinqtonun onu israrla tələb etməsi və bu səbəbdən Türkiyəyə qarşı ciddi təzyiqlərə səbəb olacağı, baha başa gələ biləcəyi ilə bağlı ola bilər.

Maraqlıdır ki, amerikalı rahibin azad edilməsi Türkiyə iqtisadiyyatına həmən təsir edib. Belə ki, rahibin azad edilməsindən qısa müddət sonra "Türkiyə Hava Yolları"nın səhmləri 14,40 faiz bahalaşıb. Bu, 2004-cü ildən bu yana ən ciddi yüksəliş olub. Rahibin azad edilməsindən faydalanan daha bir iqtisadi qurum "Halbank" olub: Türkiyənin ən böyük dövlət banklarından birinin hissələri 16 faiz dəyər qazanıb. Bu hadisə ABŞ-Türkiyə münasibətlərindəki gərginliyin Türkiyə iqtisadiyyatına təsirini bir daha əyani şəkildə nümayiş etdirib.

❑ **Kənan RÖVŞƏNOĞLU,**
**"Yeni Müsavat"**

# İran generalından ABŞ-a sərt cavab: "Sizi məhv etmək üçün mənim briqadam bəsdir"



**İran İslam İnqilabı Keşikçiləri Korpusunun Qüds qüvvələri komandanı, general Qasım Süleymani ABŞ prezidenti Donald Trampın İranı hədəf alan ifadələrinə sərt reaksiya verib.**

Virtualaz.org-un yerli KİV-ə istinadən məlumatına görə, bu barədə Süleymani Həmədan şəhərində keçirilən bir anım tədbirində çıxışı zamanı bildirib.

"Tramp, sənə səslənirəm. Sənə düşündüyündən daha yaxınıq. Bu savaşı siz başlada bilərsiniz, ancaq sonunu biz müəyyən edərik. Bu döyüş ABŞ-ın bütün imkanlarının yox edilməsi deməkdir. Bunun üçün İran Silahlı Qüvvələrinin bütün gücünə ehtiyac yoxdur. Qüds qüvvələri və mən kifayət edərik. Qorxudan tankların içərisində əsgərlərinizə uşaq bezləri bağlayırdınız, indi durub bizi təhdid edirsiniz?", - deyə general qeyd edib.

YENİ MÜSAVAT
N 160 (7049) 27 iyul 2018

**Bakı Ağır Cinayətlər Məhkəməsində Seyidmalik Məmmədovun cinayət işi üzrə məhkəmə prosesi başa çatıb. Hakimlər kollegiyasının hökmünə əsasən, Seyidmalik Məmmədov 12 il müddətinə azadlıqdan məhrum edilib.**

# Sabiq polis rəisi namus üstündə qətllərdən danışdı

## Mahmud Hacıyev: “Çıxarılan hökmə genimizdən irəli gələn və düşüncəmizə təsir edən səbəblər də təsir edir”



Qeyd edək ki, prokuror çıxışında Seyidmalik Məmmədovun 18 il müddətinə azadlıqdan məhrum edilməsini tələb edib. 60 yaşlı Seyidmalik Məmmədov bildirib ki, cinayəti namus üstündə törədib. Daha bir namus üstündə qanlı cinayətin araşdırılması Sumqayıt Apelyasiya Məhkəməsində sona çatıb. Hakim Nazim Mövsümovun sədrliyi ilə 1994-cü il təvəllüdlü Ruslan İbrahimovun apelyasiya şikayətinə baxılıb. R.İbrahimov xalası ilə ər-arvad münasibətində olan Ramil Şıxəliyevi ov bıçağı ilə vurub. O, cinayəti namus üstündə törətdiyini deyib. Bakı Ağır Cinayətlər Məhkəməsinin hökmünə görə, 7 il müddətinə azadlıqdan məhrum edilən R.İbrahimovun cəzası 4 ilə endirilib. Eyni motivlə İsmayıllının Kürdmaşı kəndində də qətl qeydə alınıb. Kənd sakini Elçin Cəfərov həyat yoldaşı 1989-cu il təvəllüdlü C.S-ovanı odlu silahdan açdığı atəşlə öldürüb.

**Belə cinayətləri, qətlləri doğuran səbəblər haqda sabiq polis rəisi Mahmud Hacıyevin fikirlərini öyrənmişik. Mahmud Hacıyev deyir ki, cinayətlərin törədilməsi səbəblərini öyrənən kriminalogiya elmi var:** “Kriminalogiya 3-5, 8-10 illik dövrlərdə baş verən oxşar cinayətlərin başvermə səbəblərini öyrənir. Cinayət hansı zonada, hansı silahla, üsulla və s. məqamlar nəzərə alınmaqla araşdırılır. Hansı zonada bu və ya digər cinayətin artma səbəbləri öyrənilir. Hüquqşünaslar, psixoloqlar, psixiatrlar kompleks halında araşdırma aparırlar. Bu və ya digər cinayəti törətmiş şəxsin psixoloji durumu, yaşam tərzi, iş şəraiti və digər faktorlar nəzərə alınır. İnsan var ki, cinayəti psixoloji durumundakı naqisliklərə görə törədir. Mümkündür ki, şəxs emosional olsun və hər hansı bir hadisədən affekt vəziyyətə düşsün cinayət törətsin. Olur ki, şəxsdə ruhi pozğunluq var, amma bundan heç yaxınları da məlumatlı deyillər. Hansısa hadisənin təsiri altında belə pozğunluq özünü büruzə verir və cinayət törənir. Bu baxımdan hüquq-mühafizə orqanlarının niyə vaxtında tədbir görüb bu və ya digər cinayətin qarşısını almaması haqda ittihamlar həmişə haqlı deyil”.

**Mahmud Hacıyev deyir ki, cəmiyyət olan yerdə cinayət də var:** “Cinayət varsa, cinayətkarlıqla mübarizə də var. Şəxs hər hansı bir səbəbdən cinayət törədirsə, onun cəza alacağı da gözləniləndir”.

**Sabiq polis rəisi namus üstündə qətl törədənlərə hüquq-mühafizə, prokurorluq-məhkəmə səlahiyyətlilərinin fərqli münasibətinin səbəblərinə də toxundu:** “Qanuna görə, hakimlər müstəqil və sərbəstdirlər, qanuna tabedirlər. Qanunların sanksiya hissəsində törədilmiş cinayətə görə cəza təyin edilərkən konkret göstəriş yoxdur. Yəni filan cinayətə görə konkret olaraq 10 il, digər cinayətə görə 15 il cəza təyin edilsin göstərişi yoxdur. Cinayət əməlinə görə aşağı və ya yuxarı hədd var. Maddələrdə 10 ildən 15 ilə, 15-dən 25-ə qədər aşağı yuxarı hədd təyin olunur. Ona görə yuxarı-aşağı hədd müəyyən olunur ki, hakim özünün sərbəst hüquq düşüncəsini ortaya qoya bilsin. Hakim işi araşdırır və sonda özünün hüquq düşüncəsinə uyğun hökm verir. Məhkəmədə cinayət törədənin belə bir əməli hansı səbəbdən törətməsi, məhkumluğunun olub-olmaması, cavan olması, iş, yaşayış yerində necə xarakterizə olunması və s. nüansları nəzərə alır. Aydın məsələdir ki, genimizdən irəli gələn və düşüncəmizə təsir edən səbəblər də var. Hakimlər də baxırlar ki, cinayət qeyrət-namus üstündə törədilib. Hakimlərin içində də hamıda olduğu kimi, gendən gəlmə çağırışlar var. Hökm çıxararkən həmin gendən gələn çağırışlar təsir edir. Namus məsələlərində aşağı həddin təyini də əsasən bu məsələ ilə bağlıdır”.

❑ **E.MƏMMƏDƏLİYEV, “Yeni Müsavat”**

# Zaqatalada itkin düşən gənc çobanın meyiti tapıldı



**Zaqatalada itkin düşən çobanın meyiti tapılıb. APA-nın Fövqəladə Hallar Nazirliyinin saytına istinadən verdiyi məlumata görə, Böhran Vəziyyətlərinə İdarəetmə Mərkəzinə daxil olmuş məlumata əsasən, dünən Zaqatala rayonunun Car kəndi yaxınlığında dağlıq ərazidə davam edən axtarışlar zamanı 21 iyul 2018-ci il tarixində axtarışların aparıldığı ərazidə naməlum şəraitdə itkin düşmüş, 1982-ci il təvəllüdlü İbrahimov Qurban İbrahim oğlunun meyiti Fövqəladə Hallar Nazirliyinin Xüsusi Riskli Xilasetmə Xidmətinin qüvvələri tərəfindən aşkar olunub. Qəzet çapa gedərkən Q.İbrahimovun meyitinin dağdan endirilməsi üzrə tədbirlər davam etdirilirdi.**

Yüksək, çətin keçilən mürəkkəb relyefli ərazidə aparılan axtarış işlərinə Fövqəladə Hallar Nazirliyinin Xüsusi Riskli Xilasetmə Xidmətinin dağ-xilasedici dəstəsi, kinoloqları və xüsusi təlim keçmiş itləri, Aviasiya dəstəsinin “Mi-17" helikopteri, Dövlət Sərhəd Xidmətinin şəxsi heyəti, Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının şəxsi heyəti və helikopteri, Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Zaqatala Dövlət Təbiət Qoruğunun əməkdaşları, yerli sakinlərdən ibarət könüllülər cəlb olunub.

# Adnan Oktar mason olmaq üçün nə qədər ödəyib - faktlar, sənədlər, etiraflar...

## AİDS testindən və yalan detektorundan keçən “kedicik”lər, Trampın dəvətinə qatılmaq üçün ödənilən 200 min dollar - Oktar qalmaqalı davam edir

**Türkiyədə həbs olunan Adnan Oktar və onun dəstəsi ilə bağlı yeni şok detallar üzə çıxmaqda davam edir. Musavat.com Türkiyə mediasına istinadən xəbər verir ki, cinayətkar qruplaşmanın tələsinə düşən gənc qızlardan qan nümunələri alınıb, AIDS Və hepatit testi keçiriləndən sonra Adnan Oktara təqdim edilirdi.**



**Adnan Oktar “kedicik”lərini yalan detektoruna oturdurmuş**

Mengele" kod adlı qaçaq həkim Muhammed Cihat Gündoğdunun evində bu məqsədlə istifadə edilən, son texnologiyalara sahib tibbi cihazlar ələ keçirilib. Gündoğdunun evi və xəstəxanadakı otağında yerləşən cihazlar da ələ keçirilib.

Həkim Cihat Gündoğdu eyni zamanda bu cinayətkar qruplaşmanın içində komplikasiya proqramlarına sahib olan yalan detektorundan da istifadə edib. Bu maşının özəl bir kompüter, barmaq ucuna taxılan nəbz ölçən və yeni texnoloji səs analizi edə bilən mikrofondan ibarət olduğu ortaya çıxıb. O, qrupun bəzi üzvləri üzərində təcrübələr keçib, ardınca isə “Bacılar” qrupundan bir-iki nəfərə bu cihazdan istifadəni öyrədib, kompüteri və ona aid hissələri onlara təslim edib.

**Onu həbsxanada iki nəfər ziyarət edib**

Bu arada Adnan Oktarın türmə günləri ilə bağlı maraqlı detallar üzə çıxmağa davam edir. Silivridən Edirne F tipli türməyə köçürülən A.Oktarın ilk ziyarətçiləri də gəlib. Oktar onlarla ilk qapalı görüşünü keçirib.

Oktar ilk iki gün videokameralı müşahidə otağında türmənin psixo-sosial mütəxəssisləri tərəfindən müşahidə altında tutulandan sonra 3 nəfərlik bir hücrəyə göndərilib. Oktarın ilk ziyarətçiləri ginekoloq qardaşı Kənan Oktar və qardaşı qızı Qamze Oktar olub. Oktar ziyarətçiləri ilə şüşə qoruyucunun arxasından görüşüb. Görüşə türmə işçiləri də nəzarət edib və onların ümumi söhbətləri yarım saat davam edib.

Normal şərtlər altında Oktarın yaxınları ilə həftədə bir dəfə qapalı görüş, ayda bir dəfə də açıq görüş keçirmək haqqı var. Amma intizam cəzası alarsa, bu hüququ məhdudlaşa bilər.

**Trampın dəvətinə qatılmaq üçün 200 min dollar ödəyib**

Bu mövzu ilə bağlı daha bir detal isə A.Oktarın necə mason olmasıdır. Türkiyə mediası yazır ki, cinayətkar qruplaşmanın lideri 1 milyon 50 min avro verərək, 33-cü dərəcədən mason olub.

**İstintaq çərçivəsində ifadə verən C.Ö adlı təqsirləndirilən şəxs Oktarın həmin sənədi necə aldığını deyib:** “Adnan Oktar 2012-ci ildə xaricdə daha böyük nüfuz əldə etmək üçün mason olmasının vacibliyini dedi və məndən bununla bağlı araşdırma aparmağımı istədi. Mən də dünyadakı ən güclü mason lojalarının Şotland Rit və P2 mason lojaları olduğunu öyrənib bildirdim. Ritə üzv olmaq üçün İngiltərədə yaşaması lazım idi. Ona görə də P2 Mason lojası ilə əlaqə qurmağımı istədi. Hər dəfə 350 min avro olmaqla, 3 dəfə pul verərək, 33-cü dərəcədən mason olmasına nail olduq. Bu vəsilə ilə 2014-cü ildə İtalya xarici işlər naziri Franco Frattini Türkiyəyə gələrək, A.Oktarla görüşdü. Bu loja Vaşinqton lojası ilə ortaq hərəkət etdiyi üçün Trampın prezidentiyə qəbul günündə də dəvət alındı. Adnan Oktarı təmsil etmək üzrə Oktar Babuna və yanındakı bir nəfər bu tədbirə qatıldı. Bu dəvətnamələri almaq üçün Adnan Oktar 200 min dollar pul ödədi”.

**Oktarın tapançaları, mərmiləri və Tövratı**

A.Oktarla bağlı həyata keçirilən əməliyyatlarda ələ keçirilən silahlar və cinayət ünsürləri İstanbul əmniyyət müdirliyində nümayiş etdirilib. Oktarın İstanbul-Çengelköydəki villasında ələ keçirilən əlyazması Tövrat isə İstanbul Muzeylər Müdirliyinə təslim edilib. Hazırlanacaq sənədin ardınca Tövrat müəyyən bir muzeydə nümayiş etdiriləcək. Ünvanlarda ələ keçirilən tabloların ekspertizası isə davam etdirilir.

Polis 17-si sənədli, 5-i sənədsiz olmaqla, toplam 23 tüfəng, 65-i sənədli, 5-i sənədsiz olmaqla, 70 tapança, 7 polis ratsiyası, 17 min mərmi və 289 güllə sandıqcası ələ keçirib. Cinayətkar qruplaşma qızıl əşya satışı ilə məşğul olan şirkətlərin adından istifadə edərək, bu silahları saxta sənədlərlə əldə edib.

İstanbul Baş Prokurorluğunun həyata keçirdiyi istintaq çərçivəsində Oktarın “cinayətə yol vermək məqsədilə qruplaşma qurmaq”, “uşaqların cinsi istismarı”, “məqsədli cinsi hücum”, “şantaj”, “mal varlığı dəyərlərini ölkə xaricinə çıxarmaq” və “”şiddət, təhdiddən istifadə edərək insanların azadlığını məhdudlaşdırmaq" kimi cinayətlərdən həbsinə qərar verilib. Əməliyyat çərçivəsində 187 nəfər göz altına alınıb, onlardan 168-i həbs olunub. Oktarın yaxın cangüdəni Cüneyt Özyaşarın da həbsi ilə bu say 169 olub. Bəzi qaçaq şübhəlilər isə hələ də axtarılır.

❑ **SEVİNC, “Yeni Müsavat”**

**"Qarabağ"ın Çempionlar Liqasında "Kukesi" ilə Albaniyadakı oyunu televiziya kanallarında yayımlanmayıb. Qol.az-ın məlumatına görə, Albaniya tərəfi matçın yayımı üçün Azərbaycan kanallarından 10 min avroya qədər pul tələb edib. Amma kanallardan heç biri bu qədər pulu ödəmək gücündə olmadığını açıqlayıb.**



# "Qarabağ" üçün 10 min avro qıymayan telekanallar

**Fazil Mustafa:** "Əgər dövlət tərəfindən pul Alışanova ayrılırsa, o, çətin ki, vəsaiti sərf edib oyunu yayımlasın"

**Aydın Bağırov:** "Əsas problem "İdman Azərbaycan" kanalı ilə bağlıdır"

Digər məlumata görə, "Qarabağ" klubunun özü də yayım üçün pul ödəmək niyyətində olmayıb. Klub hesab edib ki, komandanın oyununa və yüz minlərlə azarkeşin marağını nəzərə alaraq yerli kanallar özü matçın yayımı üçün pul ödəməlidir.

Məlumdur ki, "Qarabağ" futbol klubu Azərbaycan üçün həm də Qarabağ adının dünyaya tanıdılması, Dağlıq Qarabağla bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması yönündə bir vasitədir. Azərbaycanda bu klubun kifayət qədər azarkeşləri var. Ölkədə isə dövlətin "İdman Azərbaycan" kanalı var ki, bu kanalın işi bilavasitə idman xəbərlərini, oyunlarını yayımlamaqdır.

**"Yeni Müsavat"a danışan deputat Fazil Mustafa bildirib ki, məsələnin mahiyyətini anlamaq lazımdır:**

"Əgər dövlət tərəfindən pul Alışanova ayrılırsa, o, çətin ki, vəsaiti sərf edib, oyunu yayımlasın. Çünki gərək insanda məsələnin mahiyyətini anlamaq, dərk etmək olsun. Çox güman ki, hələ başa salmaq olmur ki, vətən, "Qarabağ" bu komandanın Azərbaycan üçün əhəmiyyəti nə deməkdir. Bu qədər vəsait yeyilir, mənasız yerlərə pullar xərclənir. Ancaq vacib olan məsələdən Azərbaycanın ictimaiyyətini uzaq tuturlar. Bu məsələni dəfələrlə bildirmişik ki, yayım siyasəti olduqca yanlışdır. Yəni "Qarabağ"ın uğurundan da böyük olan Azərbaycan üçün hansısa məsələ varmı? İnsanlar bunu dərk etmirlərsə, sonu necə olacaq? Ona görə hesab edirəm ki, insanlar üçün pul xərcləməkdə bəzi şəxslər və qurumlar maraqlı olmurlar. Əslində bu vəsaiti "Qarabağ"ın üzərinə qoymaq olmaz. Çünki "Qarabağ" bu gün həm də Azərbaycanı təmsil edir. Bu, Azərbaycanın tanıtımı deməkdir. Ona görə də məsələdə bir qədər vicdanlı davranmağa ehtiyac var".

**Xəbəri yayımlayan saytın rəhbəri, idman eksperti Aydın Bağırov da məsələ ilə bağlı "Yeni Müsavat"a fikirlərini bildirib. O söyləyib ki, bu cür hallar hər dəfə təkrar olunur:**

"Əslində bu məsələ yeni deyil. Hər il eyni hal baş verir və bu, davam etməkdədir. Hər il Avropa kubokunun oyunları zamanı təkcə "Qarabağ" deyil, eləcə də bizim digər klublar var ki, onlar öz şəxsi vəsaitləri hesabına oyunları yayımladıblar. Komandaların səviyyəsindən asılı olaraq, ödəniləcək məbləğ fərqli olur. Yəni 5 min avro da ola bilər, 20, 30 min avro da. Bu, qarşı tərəfin istəyindən asılı olan bir haldır. Bəs bu vəsaitin ödənilməsində kim maraqlı olmalıdır? Normal futbol ölkələrində belə məsələlərdə televiziyalar maraqlı olurlar. Söhbət normal futbol ölkələrindən gedir. Bizdə ölkənin "İdman Azərbaycan" kanalı var. Bu kanal dövlətin büdcəsindən maliyyələşir. Qeyri-rəsmi məlumata görə həmin büdcə təxminən 10 milyon manata yaxındır. Ancaq indəyədək heç bir klub təsdiq edə bilməz ki, "İdman Azərbaycan" kanalı hansısa oyuna pul verib, onu Azərbaycanda canlı yayımlayıb. Belə bir hal olmayıb. Əslində isə bu, olmalıdır. Çünki dövlət tərəfindən ayrılan vəsait də məhz buna görə həmin kanala ayrılıb. Kanal eyni zamanda başqa idman növlərini də canlı olaraq yayımlamalıdır. Problemin ən başında gələn məsələ budur ki, kanal oyunları yayımlamır. Çempionlar Liqasının iştirakçısı olan və qrupunda oynayan komanda, klubun özü də gözləyir ki, kanallar bu addımı atmalıdır. "Qarabağ" komandası kiminsə şəxsi mülkü deyil və xalqa məxsusdur. Kanal da öz həm peşəkarlıq, həm mənəvi baxımdan da götürəndə maraqlı olmalıdır ki, oyunu alsın. Ancaq görünür, peşəkarlıq məsələsi "İdman Azərbaycan" kanalına bir qədər ziddir. Belə görürük ki, oyun vaxtı onlar üçün hansısa öküz döyüşünü göstərmək daha maraqlıdır. "Qarabağ" komandası da hər dəfə sadəlövhcəsinə inanır ki, kanallar pul verib, oyunu alacaqlar. Son ana qədər gözləyirlər, insanların da əsəbləri tarıma çəkilir. Neçə illərdir ki, bu, belədir. Bizim "CBC sport" adlı digər idman kanalımız da var. Onların adlarını ona görə çəkmirəm ki, bu kanalın büdcəsi olduqca aşağıdır. Bu kanalın günahı yoxdur. Əsas problem "İdman Azərbaycan" kanalı ilə bağlıdır. Məsələ öz həllini tapmalıdır. Çünki belə bir biabırçı durum bu qədər müddət davam edə bilməz".

**Ekspert bildirib ki, son oyunu da hər dəfə olduğu kimi, "Qarabağ" klubunun özü pul verib yayımlatdı:** "İllərdir ki, oyunu yayımlayan "Qarabağ" klubunun özüdür. İndiyə qədər heç bir kanal pul verib, oyunu yayımlamayıb. Yalnız Çempionlar Liqasının qrup oyunları istisnadır. Bunun da əvvəlcədən dövlət kanalları yayım hüququnu alıb. Ona görə də başqa bir variantları olmur. "Qarabağ" klubu bu fikirlə barışmalıdır ki, onsuz da bizim kanallar pul verib, oyun alası deyil. Ona görə də məsələni əvvəlcədən həll etməlidirlər. 3-5 gün əvvəl elan edilməlidir ki, azarkeş də rahat şəkildə oturub, oyunun vaxtını gözləsin".

❑ **Əli RAİS,**
**"Yeni Müsavat"**

# Bakıda narkoman necə avtobus sürücüsü oldu - araşdırma

Yüzlərlə insanın canını əmanət etdiyi sürücülərə nəzarət niyə yoxdur? **Mais Ağayev:** "Əgər daşıyıcı işinə zamanında məsuliyyətlə yanaşsaydı, yəqin ki, bu cür sürücülər sükan arxasında əyləşməzdi"

**202 nömrəli marşrut xəttinin sürücüsünün sükan arxasında narkotik qəbul etməsi bu günlərdə ölkə ictimaiyyətinin gündəminə çevrildi. Rəsmi məlumata görə, artıq sükan arxasında narkotik maddə qəbul edən sürücü həbs edilib, daşıyıcı şirkətin kolon rəisi isə cəzalandırılaraq, vəzifəsindən azad olunub.**

Ümumiyyətlə, təhlükə saçan avtobus sürücülərinə tez-tez rast gəlinir. Sonuncu isə daha acınacaqlı haldır. Hər gün yüzlərlə insan daşıyan, uşaqlı, böyüklü hər kəsin canını həvalə etdiyi avtobus sürücüsünün narkotik qəbul etməsi və onun sürücü kimi işə alınması ictimaiyyətdə ən çox tənqid edilən məsələdir.

"Yeni Müsavat"a danışan Bakı Nəqliyyat Agentliyinin İctimaiyyətlə əlaqələr şöbəsinin rəhbəri Mais Ağayev bildirib ki, bütün bunlar ondan irəli gəlir ki, daşıyıcı işinə məsuliyyətlə yanaşmayıb:

"Əgər daşıyıcı işinə zamanında məsuliyyətlə yanaşsaydı, yəqin ki, bu cür sürücülər sükan arxasında əyləşməzdi. Bu onu göstərir ki, ilk növbədə daşıyıcı işinə məsuliyyətsiz yanaşıb. Daşıyıcılara kifayət qədər vaxt vermişdik ki, onlar öz işlərində məsuliyyətli olub, fəaliyyətlərini sərnişindaşımanın tələblərinə uyğun formada qursunlar. Lakin çox az sayda daşıyıcı var ki, bu tələblərə əməl edirlər. Bu gün marşrut xətləri müsabiqəyə çıxarılıb. İlk sıralarda məhz o xətlər çıxarılıb ki, həmin xətlərdən çoxsaylı şikayətlər var. Bu xətlərin daşıyıcıları sərnişindaşımanın tələblərinə əməl etmirlər. Birdən-birə həmin xətti daşıyıcıdan ala bilmirik. Çünki müsabiqə olmalı, əvəzedici daşıyıcı seçilməlidir. 20 və 94 nömrəli avtobusların da sürücülərindən kifayət qədər şikayətlər var idi. Demək olar ki, hər gün çağrı mərkəzinə yüzlərlə sərnişin tərəfindən şikayətlər daxil olurdu və onların sürücüləri də sərnişindaşıma qaydalarına əməl etmirdilər, dəfələrlə qəza olmuşdu. Ancaq daşıyıcılar heç bir tədbir görmürdülər. Nəticədə biz həmin xətləri müsabiqəyə çıxarıb, "Bakubus" şirkətinə verdik. Getdikcə digər marşrut xətləri də həmin qayda üzrə müsabiqəyə çıxarılacaq".



**Nəqliyyat üzrə ekspert İlqar Hüseynov "Yeni Müsavat"a bildirib ki, sürücülük üçün müraciət edənlər ilk növbədə ciddi şəkildə müayinədən keçirilməlidir:**

"Əslində biz bilirik ki, sərxoş sürücüləri müəyyənləşdirmək mexanizmi çox asandır. Yəni dövlət yol polisinin əməkdaşlarının əlində xüsusi cihaz olur və bu cihaz vasitəsilə asanlıqla sürücünün alkoqol qəbul edib-etməməsini müəyyənləşdirmək mümkün olur. Ancaq narkotik maddə qəbul etmiş sürücüləri yalnız davranışlarından şübhələnmək olar ki, o, hansısa maddə qəbul edib. Eyni zamanda Dövlət Yol Polisi əməkdaşları hansısa cihazla da təmin edilməyiblər ki, bu cür sürücüləri müəyyənləşdirsinlər. Daşıyıcı şirkətlər işə götürdükləri hər bir sürücüdən narkoloji test olunmağı tələb etməlidirlər. Narkoloji dispanserdən sürücülər keçib, analizin nəticələrini gətirməlidirlər. Şirkət də bilməlidir ki, doğrudan da bu sürücü narkotik aludəçisi deyil. Bunun mexanizmi o qədər mürəkkəbdir ki, yalnız narkoloji testlər vasitəsilə müəyyən etmək olar ki, sürücü narkotik maddə qəbul edib. Şübhəsiz ki, bu, sərnişinlərin həyatı üçün təhlükə yaradır. Ona görə də daşıyıcı şirkətlər diqqətli və məsuliyyətli olmalıdır. İş vaxtı sürücünün narkotik qəbul etdiyini müəyyənləşdirmək çətindir. Çünki avtobuslar adətən dövlət yol polisləri tərəfindən saxlanılmır. İri tutumlu sərnişin avtobuslarında sürücülərdə bir arxayınlıq yaranır ki, onsuz da onları yol polisləri saxlamayacaqlar. Hətta xüsusi yollar var ki, həmin yollara da avtobuslar girə bilirlər. Yəni avtobuslar üçün kifayət qədər imkanlar yaradılıb. Bu imkanlardan sui-istifadə etmək olmaz".

Məlumat üçün qeyd edək ki, Biləcəri istiqamətində hərəkət edən 10-XX-144 dövlət nişanlı avtobusun sürücüsü Cəfər Xəndan küçəsində saxlanılıb. Saxlanılan zaman lazımi sənədlərin təqdim olunmaması, eyni zamanda sürücünün özünü şübhəli aparması onunla bağlı zəruri tədbirlər görülməsinə səbəb olub. Həmin sürücü dərhal tibbi müayinədən keçirilib və məlum olub ki, Masallı rayon sakini, 1984-cü il təvəllüdlü İlkin Tağıyev spirtli içkinin təsirində olub.

Beləliklə də barəsində tərtib edilmiş sənədlər aidiyyatı üzrə tədbirlərin görülməsi üçün Binəqədi Rayon Məhkəməsinə göndərilib. Hakimin qərarı ilə sürücüyə 30 sutka həbs cəzası verilib və bir il sürücülük hüququndan məhrum edilib. 202 nömrəli marşrut xəttinə baxan kolon rəisi Oqtay Qurbanova isə 15 gün inzibati həbs qərarı verilib və o, işindən azad olunub.

❑ **Əli RAİS,**
**"Yeni Müsavat"**

**Elan**

**Dəmirçiyev Fərman Ələddin oğlunun adına olan JN-144A, kod: 41000028 saylı şəhadətnamə itdiyi üçün etibarsız sayılır.**

YENİ MÜSAVAT
N 160 (7049) 27 iyul 2018




# Qulduru dürüst insana çevirən sual

**Cümə söhbətləri**

**Bismillahir-Rahmənir-Rahim! Bügünkü bəhsimizdə inanc baxımından zəruri əhəmiyyət kəsb edən bir mövzuya toxunacağıq. Mövzumuz müqəddəs Qurani-Kərimin özü ilə bağlıdır. İslami kimliyi olan bir insanın inancında önəmli mövzulardan biri budur ki, Qurani-Kərim - Allah kəlamıdır və müsəlman da Allah kəlamını mütaliə edən zaman onu diqqətində saxlamalıdır ki, Allah Təala bu müqəddəs ayələri əslində konkret ona ünvanlayır.**

Hacı İlqar İBRAHİMOĞLU, ibrahimoglu@gmail.com
İlahiyyatçı-filosof, İçərişəhər Cümə məscidinin imam-camaatı



Qurani-Kərimin zahiri gözəlliyi, misilsiz bəlağətliliyi ilə yanaşı, onun ən başlıca xüsusiyyəti - məzmunudur. Bu, birbaşa Mütəal Allahdan gələn bir kəlamdır. Quran oxuyan insan unutmamalıdır ki, Allah Təala onunla danışır.

Müqəddəs kitabın ümumi çatdırışları ilə yanaşı, burada xüsusi müraciətlər də vardır. İnsana, insan cəminə, iman əhlinə ünvanlanan müraciətlər var Quranda. Bunların arasında içində suallar olan, sual formalı çatdırışlar və müraciətlər özünəməxsus yer tutur. Bunlar dərin, eyni zamanda xüsusi ayıldıcı bir yük daşıyırlar.

İslam tarixində çoxlu nümunələr var ki, Qurani-Kərimdə olan bu sual yüklü müraciətlər insanların oyanışına, özünə qayıdışına necə rəvac vermişdir. Bu şəxslərdən biri də Füzeyl ibn Əyyaz adlı bir insandır. Bu şəxs, İslamda həqiqi tövbə simvollarındandır, özünəqayıdış nümunələrindəndir. Onun varlığı özündə oyanışı təcəssüm edən varlıqlardandır. Füzeyl o kəsdir ki, Quranın həmin o sual yükü olan, insana ünvanlanan müraciətini qəbul edib.

Quranda belə bir nurani çağırış var. Əslində hər birimizə yönəli bir çağırışdır bu. "Məgər o zaman yetişmədimi ki, iman gətirmiş kəslərin qəlbləri Allahı yada salmaq üçün və haqdan nazil olan (Qurani-Kərim) üçün huşu halına (müti və təvazökar duruma) gəlsin?"

Müqəddəs Quran sual qoyur ortalığa. Allah-Təala Öz müqəddəs kitabında müraciət ünvanlayır bəşəriyyətə. Bir kitab vasitəsilə ki, Qiyamət gününə qədər dəyişməzlik və bənzərsizlik xüsusiyyətinə malik olmaq kimi möcüzəvi səciyyə daşıyır. Bir kitab vasitəsilə ki, Qiyamətədək müsəlmanın, İslami kimliyi olanın özəl sütunu olaraq qalacaq. Və bu Kitab bizlərin hər zaman müraciət yeri olmalıdır. Hər birimizə bu sualı verir Quran: qəlbinin qəbul edən halına, itaət halına, haqqı qəbul etmək halına gəlməsinin məqamı yetişmədimi?!

O vaxt çatmadımı?! Soruşur bizdən Allah Təbarək və Təalanın haqq olaraq nazil etdiyi kitab: O vaxt çatmadımı ki, iman gətirən kəslərin qəlbi oyansın?! O vaxt çatmadımı ki, qəlb qəbulediciyə çevrilsin?! Qəlb nurani bir duruma gəlsin?! O vaxt çatmadımı ki, iman gətirən kəslərin qəlbləri öz vücudi istedadlarına çatsın?! O vaxt çatmadımı ki, qəlb öz həqiqi mövcudiyyət fəlsəfəsini icra etsin?!

O vaxt çatmadımı ki, qəlb qəbul edən olsun?! O vaxt çatmadımı ki, qəlb təvazökarlıq və eşitməklik durumunda olsun?! O vaxt çatmadımı ki, qəlb Allahı xatırlamaq üçün hazır vəziyyətdə olsun?! O vaxt çatmadımı ki, qəlb Haqdan nazil olan Quran üçün hazır vəziyyətdə olsun?!

Əslində hər kəsə, hər bir iman sahibinə, qəlbi haqla olana ünvanlanan bir çağırışdır bu. Sanki bir bağbanla əkinin məsəlidir bu. Bağban soruşur ki, bu əkində səpilən toxumların cücərməsi vaxtı yetişmədəimi? Bu qönçələrin gül açmasının vaxtə çatmadımı? İndi Yaradan sual edir ki, yaranmışın İlahi dərgahda bəndəliyini qəlbən iqrar etməsinin məqamı gəlmədimi?! Yaradılmışın öz mahiyyətinə qayıtmasının vədəsi gəlib çatmadımı?

Çağırışı cavablandıran Füzeyl ibn Əyyaz o kəslərdəndir ki, bu çağırışı cavablandırmışdır. Kim idi Füzeyl? O, quldurbaşı idi. İşi-gücü karvanların qabağını kəsib, onları soymaq idi. Amma onun içində vücudi bir istedad var idi. Daxili qüvvələri tam ölməmişdi onun. Bir vəziyyətdə idi Füzeyl ki, onun adı gələndə karvanlırın canına üşütmə düşərdi. Adı gələndə camaat ehtiyat edərdi, yola çıxmazdı. Amma Füzeyl maddiyyat qulduru idi, mənəviyyat qulduru deyildi. Sözsüz ki, fiziki mənada quldur olmaq çox pisdir. Amma ondan da pisi - fiziki quldur olana qədər adamın öz qəlbinin qulduru olmasıdır. Öz mənəviyyatını soymasıdır. Öz vücudi sərmayəsinin qulduru olmasıdır. Mənəvi, əxlaqi, nəfsani bir quldurluğa üz tutmaqdır daha pisi. Bundan betər nə ola bilər?! Nuraniyyət üçün yaradılan vücudu, quldurcasına zülmətdə saxlamaqdan daha pis nə ola bilər?!

Füzeyl yolkəsən idi, amma qəlbinin dərinliklərində insaniyyət hissini hələ itirməmişdi. Bir gün Füzeyl ibn Əyyaz kəndlərdən birinin yanında olarkən burada günah etmək niyyətinə düşür. Elə də edir, müəyyən həyətə gedir, hasarı aşaraq, bağa girir. Füzeyl quldur məntiqli insan idi. Onun üçün günah etmək, özünü bədbəxt edərək yeni günaha qol qoymaq adi bir hal idi. Həmin bu Füzeyl günah etmək niyyətilə gecənin bir aləmində hasarı aşıb həyətə girdiyi zaman qonşudan gələn bir Quran tilavətini eşidir. O, həyətə düşən vaxt Quranın "Hədid" surəsinin 16-cı ayəsində verilən həmin o nurani sualı, o vücudi çağırışı eşidir: "O vaxt çatmadımı?.."

Əslində hər bir insana yönəlik bu çağırış, quldurcasına hasarı aşıb həyətə girən Füzeylin həyatını kökündən dəyişir. Bu sual onun həyatını iki mərhələyə bölür. Bu sual onun üçün nicat körpüsü olur.

### "Yetişdi həmin vaxt!"

Füzeyl bu çağırışı eşitcək gecənin bir aləmində, günah məqsədilə girdiyi özgə həyətində durarkən, birdən-birə bu İlahi suala, qəlbinin dərinliklərinə ünvanlanan bu mesaja - "Bədbəxtlikdən qurtarmaq vaxtı yetişmədimi?!" sualına - "Bəli, həmin vaxt yetişdi", - deyə vücudi hayqırmaqla cavab verir. Və Füzeyl bir dərin, bir səmimi tövbə edir. Özünə, öz mahiyyətinə qayıdır. Füzeyl xilas olur. Günah üçün atılan addımın ortasında eşidilən bu Quran müraciəti Füzeyldə dərin bir təsir qoyur. Füzeyldə inqilabi bir dəyişiklik baş verir: quldurluqdan dönüb, o, iman üçün qəlbi susamış bir insan olur. Allahı xatırlamaq üçün, Quran həqiqəti qarşısında təvazökarlıq və mütilik etmək üçün onun qəlbi təşnədir. Bir oyadıcı çağırış onun qəlbini alt-üst edir və yenilənməsinə səbəb olur.

Füzeyl oyanır. O, günah mənzilindən, günah ünvanından dönür geriyə. Daha günah dalınca getmir. Məntəqənin kənarına yetişdikdə, görür ki, bir dəstə adam toplaşıb, amma yola çıxmamaq qərarını verirlər. Bunun səbəbini öyrəndikdə, "Xəbər gəlib ki, Füzeyl adlı məşhur bir quldur buralardadır, onun qorxusundan heç kəs yola çıxmaq istəmir" - cavabını eşidir. Füzeyl başına döyür ki, mən gör nə vəziyyətdəyəm, nə günahın sahibiyəm ki, camaat mənim adımın qorxusundan, mənimi zülmümün xofundan yola belə çıxmaq fikrindən daşınır. Amma bu sarsıntı onun tövbəsini daha da dərin, daha da kamil edir və o, bu mənəvi zərbədən sınmır, günahdan uzaqlaşır, mənəvi quldurluqdan xilas olur. O qədər dərin iman gətirir, o qədər ixlaslı tövbə edir ki, zamanının ən böyük ariflərindən birinə çevrilir, yüksək mənəvi bir duruma gəlib çatır.

Allah o Allahdır ki, insanın istedadı olsa, qabiliyyəti, bacarığı olsa, vücudi çağırışların müqabilində insan "Bəli, zaman çatıbdır!" deməyi bacarsa, onun təsviredilməz mənəvi yüksəkliklərə qalxmasına Öz tofiqatını nazil edər. Quldur Füzeylin arif Füzeylə çevrilməsinə rəvac verər.

### Əmanətə sədaqət

Amma Füzeyllə bağlı bir mühüm məsələyə toxunmaq lazımdır ki, onun bəhsimizə çox aidiyyəti var. Füzeyl yolkəsən və quldur olmasına baxmayaraq, sonadək vücudunun talan olunmasına imkan verməmişdi. Füzeyl özünəməxsus adam idi, sıradan bir quldur deyildi. Füzeylin tövbəyəqədərki zamanına aid bir əhvalat vardır ki, çox düşündürücüdür. Və burada toxunulan əməllər, toxunulan xüsusiyyətlər səbəb olur əslində ona ki, Füzeyl bir gün gəlir xalis tövbə edir.

Füzeylin çöllü-biyabanda bir xeyməsi olubmuş. Karvanları soyandan sonra haqq-hesab üçün həmin xeyməyə gələrmişlər. Öz dəstəsi ilə talan etdiklərini burada bölərmişlər. Günlərin birində həmin yerin yaxınlığından böyük bir karvan keçir. Bu karvanın səs-sorağı yetişən zaman quldurlar öz həmişəki işlərini görməyə hazırlaşırlar.

Bu karvanla bir tacir gəlirmiş ki, üzərində böyük miqdarda pulu var idi. Kişi hənirti hiss edir, başa düşür ki, yolun üstündə quldurlar var. Düşünür ki, quldurlar karvana yetişməyincə, çıxım bir yerdə öz pullarımı gizlədim. Sonra karvana qoşularam, vəziyyət sakitləşdikdə, qayıdıb öz pullarımı götürərəm. Elə də edir. Pulları götürüb münasib yer axtarmaqda idi ki, gözünə bir xeymə dəyir. Sevincək oraya yaxınlaşıb, bir nəfəri görür. Salamlaşıb görüşdükdən sonra, pullarını onun yanında əmanət qoyur. Bundan sonra xatircəm bir vəziyyətdə qayıdır karvana.

Quldurlar bu məqamda hücum edirlər karvana, bütün qiymətli şeyləri talan edirlər. Hər şey sakitləşəndən sonra, tacir qayıdır həmin xeyməyə tərəf. Görür, quldurlar elə xeymənin ətrafında yığışıblar və talan etdiklərini bölürlər. Kişi bir başına döyür, bir dizinə ki, mən nə etdim! Öz əlimlə pullarımı aparıb verdim quldurlara. Bu məqamda həmin tacir sataşır Füzeylin gözünə. Diqqət edir ki, kişi yaxınlaşdığı halda birdən-birə geriyə dönür. Dəvət edir onu ki, nə məsələdir, danış görüm. Kişi kor-peşman: "Heç, əmanətim var idi, gəlmişdim onu götürüm". Füzeyl ona: "Get, əmanətin qoyduğun yerdədir, onu götür" - deyir. Kişi əmanətini necə vəziyyətdə qoymuşdu, eləcə də götürür və karvana qayıdır.

Quldurlar bu səhnədən sarsılırlar. Sual edirlər ki, bu, nə məsələdir, tək bu kişinin pulu, bütün karvandakından çox idi, öz əlimizlə nə üçün bu böyda qənimətdən imtina edək?! Sən nə üçün belə etdin?! Füzeyl cavabında bildirir ki, o adam mənə xoş güman etmişdi. Mənə hüsni-zənn etmişdi. Əmanəti qaytaracağıma inanıb mənə vermişdi. İnanıb vermişdi. Mən onu naümid edə bilməzdim. O ki, əmanəti mənə qoyub, mənə inanmışdı və mən onu tam yerində ona qaytarıdm - onun xoş gümanını doğruldum. Və mən də, öz növbəmdə, Allah Təalaya xoş güman edirəm. Xoş güman edirəm ki, O, mənim bu əməlimi heçə verməz, qiymətləndirər. Necə mən bu tacirim gümanının doğrultdum, Allah Təala da mənim xoş gümanımı doğruldar.

### Üzə durmayan kişinin hekayəsi

Bax, bu, quldur Füzeylin, yol kəsməyi özü üçün bir peşəyə çevirmiş Füzeylin mülahizələridir. Belə ruhi durumun, belə əmanətdarlığın, xoşgümanlığın məhsuludur ki, yolkəsənlərin başçısı bir müddət sonra cinayət üçün hasara aşanda, Quranın çağırışını: **"Məgər o zaman yetişmədimi ki, iman gətirmiş kəslərin qəlbləri Allahı yada salmaq üçün və haqdan nazil olan (Qurani-Kərim) üçün huşu halına (müti və təvazökar duruma) gəlsin?"** eşitcək tövbə edir. Sonadək vicdanını itirməmişdi Füzeyl. Quldur olanda da bir mənəvi hesab-kitabı, bir bəndəliyi var idi. Və bu, onun yeni həyata başlaması üçün bir pillə rolunu oynadı. Qəlbinin çağırışını cavablandırmaq, tüğyan edən nəfsini ram edərək özünü Allah dərgahında bilmək üçün, bəndəliyinə qayıtmaq üçün yolunu asanlaşdıran xüsusiyyətlər idi bu.

Ümumilikdə, dinimizin xoşgümanlığa münasibəti çox önəmlidir. Həzrət Əli (ə) buyurur: "Ən gözəl təqva - xoşgümanlılıqdır".

Digər yerdə İmam Əli (ə) buyurur: "İman bədgümanlıqla uyğun gəlməz".

Gördüyümüz kimi, dinimiz xoşgümanlı olmağa fövqəl dərəcədə önəm verir. İslam insanlar arasında pozitiv yüklü münasibətlərin zəruriliyini vurğulayır. Hətta imanı xoşgümanlıqla bağlayır. Bu qəbildən başqa bir hadisə nəql edirlər. Bir nəfər mənfi insan olur. Onu cinayətlərinə görə tuturlar, amma deyirlər ki, bir nəfər alim var, onun üzünə dursan, səni buraxacağıq. Nə edirlər, nə qədər qorxudurlar, pul təklif edirlər, hədə-qorxu gəlirlər, alimin üzünə durmağa razı olmur. Üzə durdurmaq istəyənlər üçün məhz bu "adlı-sanlı" cinayətkarın alimə qarşı çıxmağı mühüm idi, çünki camaat inanmazdı ki, bu cür insan elə yalandan satılıb və ya qorxub, ona görə alimə böhtan atır. Amma nə qədər edirlər, bu quldur sınmır, üzə durmağa razı olmur. Nəhayət, atasını göndərirlər yanına. Atası deyir ki, sən ki, dindar-zad deyilsən, nə çətindir üzə durmaq, axı səni açıb buraxacaqlar. Nə əcəb belə dirənmisən? Oğlu cavab verir ki, düzdür, mən dindar deyiləm. Çox pis işlər də görmüşəm həyatımda. Amma bu şərəfsizliyə qol qoya bilmərəm. Beləcə, sındıra bilməyib, bu adamı öldürürlər. Çoxunun bir bəhanə tapacağı məqamda bu kişi mətinlik, prinsipiallıq, dəyanət göstərir və birdən-birə qəlbini elə saflaşdırır ki, yüksək mənəvi dərəcələr əldə edə bilir.

Hər bir insan üçün tövbə yolu açıqdır və hər bir insan Allah Təalanın lütfündən ümidli olmalıdır. Hər bir insan Allah Təalanın çağırışını, bəndəliyə dəvətini cavablandıra, həqiqi tövbə ləyaqətini əldə edə bilər. Allah-Təala cəmi insanlar üçün bu mənəvi çağırışları cavablandırmaq tofiqatını nəsib etsin! Amin!

# YENİ MÜSAVAT

## Son səhifə

N 160 (7049) 27 iyul 2018


# Evindən quyu çıxdı

Britaniyalı kişi Plimutda yerləşən evindəki otaqlardan birində quyu aşkarlayıb. Bu barədə "Express" nəşri xəbər verib.

Kolin Stir və onun arvadı 80-ci illərdə köçdükləri evdə o qədər də dərin olmayan bir quyu aşkarlayıblar. Həmin vaxt onlar evlərində üç balaca uşaqları olduğu üçün quyunu bağlamağı qərara alıblar. 2011-ci ildə isə kişi evi təmir etməyə qərar verib və bu zaman sözügedən quyunun daha dərin olduğu üzə çıxıb. O, qonşusu ilə birlikdə quyunu qazmağa başlayıb və onun 5 metr olduğunu görüb. Sonradan quyu qrunt sularına çatıb. "Mən düşündüm ki, bu yerdə kimsə basdırılıb. Amma qazanda bunun adi quyu olduğu nu üzə çıxardıq".



Quyunun nə vaxt qazıldığını dəqiqləşdirmək mümkün olmayıb. Hazırda ailənin dostları quyuya pul ataraq arzularının gerçəkləşməsini istəyirlər.



# Aşpaz kral ailəsinin mətbəx sirlərini açdı

**Britaniya kraliçasının keçmiş baş aşpazı ailənin yemək zövqləri barədə sirləri açıqlayıb. Lenta.ru saytı xəbər verir ki, kral sarayında 15 il çalışmış Darren Makqredi bildirib ki, ailədəki yemək qaydalarını birmənalı şəkildə kraliça Yelizaveta müəyyənləşdirir. Ailə böyük yemək masasının arxasına keçəndə tərkibində külli miqdarda zülal olan qidalara yasaq qoyulur. Bundan başqa, baş aşpaza yeməklərə sarımsaq qatmaq qadağan edilib. Bu, onların ağzından pis qoxu gəlməsinin qarşısını almaq üçündür.**

Kraliça eyni zamanda "vell-done" üsulu ilə hazırlanmış steyk həvəskarıdır. Bununla belə, o, heç vaxt yeməyini axıra qədər yemir. Hətta adi bananı da Yelizaveta tam yemir, onu bir neçə hissəyə bölərək, çəngəllə yeyir.

3 iyulda isə məlum oldu ki, şahzadə Harri ilə evləndən sonra Meqan Markl bir dəfə də olsun, kraliçanın nifrət etdiyi ayaqqabını geyməyib. Bütün dünya, eləcə də kraliça ailəsi bilir ki, Yelizaveta tanget ayaqqabılara nifrət edir. Buna görə də onun qəzəbini qazanmaq istəməyən gəlinləri bu qaydaya riayət edirlər.

# İtlər öz yiyələrinə oxşayırlar

**İtlərin sahiblərinin xasiyyətini əks etdirdiyi barədə fikirlər artıq elmi baxımdan dəstəklənir. BBC-nin xəbərinə görə, avstriyalı alimlər deyirlər ki, itlər sahiblərinin narahatlığını və mənfi hisslərini əks etdirə bilər. Rahat, mehriban itlər isə bu keyfiyyətləri insanlara bəxş edərək sahiblərinə stressin öhdəsindən gəlməyə kömək edə bilər.**

100-dən çox it və onların sahibləri müxtəlif testlərdən, o cümlədən ürək ritmi və təhlükəyə reaksiya ilə bağlı testdən keçib. Stressin əlaməti olan kortizol hormonunun qanda səviyyəsini ölçmək üçün tüpürcək nümunələri də götürülüb. Bundan başqa, sahibləri beş əsas xasiyyət əyarına əsasən qiymətləndiriblər: əsəbilik, ünsiyyətcillik, yeni təcrübələrə açıqlıq, xoşagəlimlilik və vicdanlılıq. İtlərin xasiyyətləri də anket vasitəsilə qiymətləndirilib.

Vyana Universitetindən Dr Iris Schoberl deyib ki, sahiblər və itlər bir-birinin mübarizə mexanizmlərinə təsir edib. Doktor Schoberlə görə, bu halda insanlar itlərdən daha təsiredici olub. "Əldə etdiyimiz nəticələr (real həyatda) gördüyümüzlə üst-üstə düşür: sahiblər və itlər sosial cütlükdür və onlar bir-birinin stresslə mübarizə mexanizminə təsir edir", - deyə alim BBC-yə bildirib.

Onun sözlərinə görə, sahiblərinin emosional halları itlərə təsir edir və itlər həmin emosiyaları təkrarlaya bilər. İtlər 30 000 ildən çoxdur ki, insanlarla yan-yana yaşayır.





# Sevgilisi olmayanlar... elektroyorğana bürünür

**EMNID (Erforschung der öffentlichen Meinung - Marktforschung - Nachrichten - Informationen - Dienstleistungen) institutu alman energetik kampaniyası olan E.On-un sifarişi ilə Avropa ölkələri vətəndaşları arasında maraqlı bir araşdırma keçirib.**

Araşdırma insanların öz donmuş ayaqlarını necə qızdırmaları ilə bağlıdır. İlk yerdə elektroyorğanlar gəlib. İkinci yerdə isə partnyorlardır.

Araşdırmaya 8 mindən artıq adam qatılıb. Almaniya, Böyük Britaniya, İtaliya, Çexiya, Rumıniya, İsveçrə, Türkiyə və Macarıstan ölkələri əhalisi arasında keçirilən araşdırma nəticəsində rəyi soruşulanların 28 faizi elektroyorğanı tərcih ediblər. Cəmi 25 faiz isə sevgilisini qucaqlayaraq isinmənin tərəfdarıdır. Yunanıstanda partnyor və qrelkanı respondentlərin 24 faizi tərcih edib. Macarıstanda 44 faiz, Rumıniyada isə 39 faiz elektrik cihazının köməyi ilə isinir. Britaniyalılar isə donmuş bədənlərini sevgililərinin köməyi ilə isidirlər.




**QOÇ** - Qeyri-adi heç nə gözlənilməsə də, gününüzü maraqlı etmək üçün canfəşanlığınızı artırmalısınız. Darıxdığınız adamların əhatəsində olun. Keçmiş problemlərdən danışıb özünüzü yormayın.

**BUĞA** - Çox maraqlı bir gün yaşayacaqsınız. Bir tərəfdən hadisələrin zövqünüzlə uyğunlaşması, digər tərəfdənsə maraqlı insanlarla rastlaşmağınız ovqatınızı yüksəldəcək.

**ƏKİZLƏR** - Yeni görüşlər üçün səmərəli vaxtdır. Yaxşı olar ki, əvvəlcədən təyin edilmiş işgüzar sövdələşmələri təxirə salmayasınız. Məhəbbətdə səmimi olun və kənar təsirlərə baş qoşmayın.

**XƏRÇƏNG** - Ola bilsin ki, çoxdan görmədiyiniz xeyirxah adamlarla rastlaşasınız. Belə olarsa, öz problemləriniz haqqında onlara danışmaq olar. Bu gün savab işlərinizin sayını artırın.

**ŞİR** - Planetar quruluşun bürcünüzə təsir imkanları təzadlı proseslər yarada bilər. Çalışın ki, Tanrıya zidd olan hərəkətlərə yol verməyəsiniz. Maliyyə söhbətlərini təxirə salın, uzaq yola çıxmayın.

**QIZ** - Astroloji göstəricilər gün ərzində səhhətinizlə bağlı problemlərin artacağını bildirir. Yaxşı olar ki, fiziki işləri təxirə salıb istirahətə üstünlük verəsiniz. Ac və yuxusuz qalmayın.

**TƏRƏZİ** - Deyirlər insanın hər şeydən əli üzüləndə məhəbbət budağından yapışır. Ulduzlar da bu təqvim üçün sizə məhz həmin tövsiyələri təlqin edir. Qəlbinizi sevgisiz qoymayın.

**ƏQRƏB** - Bir qədər təzadlı məqamlar yaşayacağınız gözlənilir. Buna baxmayaraq, yeni işgüzar əlaqələrə başlamağınız daxili nikbinliyinizi artıracaq. Təcrübəli adamlardan yararlanın.

**OXATAN** - Kifayət qədər uğurlu gündür. İstər qarşılıqlı münasibətlərdə, istər perspektivli sövdələşmələrdə, istərsə də maliyyə uğurlarına yetişməkdə ulduzlar yardımçınız olacaq.

**OĞLAQ** - Təxminən saat 15-ə qədər özünüzü təmkinli apara bilsəniz, gözlənilən təlatümlərdən qurtulacaqsınız. Sonrakı ərəfədə isə iki sürprizlə qarşılaşacaqsınız. Onların biri pulla bağlıdır.

**SUTÖKƏN** - Yaxşı olar ki, ixtiyarınızda olan bu təqvimdə özünüzü çox da üzməyəsiniz. Əks təqdirdə səhhətinizlə bağlı xoşagəlməzliklər mümkündür. İstənilən mübahisədən uzaq olun.

**BALIQLAR** - Bir qayda olaraq iyulun bu ərəfəsi şəxsi işlərinizdə əsaslı dönüş yaradır. Lakin bu, saat 14-dən sonra mümkün ola bilər. O vaxta qədərsə, hər bir mübahisədən yayınmalısınız.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

# İşə gəlir, amma saatlarla yatır

**ABŞ-ın Kaliforniya ştatının avtonəqliyyat departamentinin əməkdaşı iş yerində daim yatır. Bu haqda "The Sacramento Bee" nəşri xəbər verir. Şahidlər istintaqı aparan məmurlara bildiriblər ki, qadın hər gün işə gəlir və üç saat boyunca fasiləsiz yatır. 2014-cü ilin fevralından 2017-ci ilin dekabrına qədər qadın iş yerində 2.2 min saat yatıb.**

Qadın ofis yuxusunu xəstəlik adlandırıb. 2016-cı ildə onu müalicə edən həkim bildirib ki, o, əvvəlki iş öhdəliklərini yerinə yetirə bilmir. Əməkdaşlar ona fərqli bir vəzifə versələr də, o, işə gəldiyi halda, yatmaqda davam edib. Onun iş yoldaşları dəfələrlə bu barədə rəhbərliyə şikayət ediblər, amma buna məhəl qoyan olmayıb. Qadın hələ də nəqliyyat vasitələri departamentində çalışır və yatmağa davam edir.

Səhifəni hazırladı: SELCAN


Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Zahid SƏFƏROĞLU

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 5.100